AZƏRBAYCANIN BÜTÖVLÜYÜ, MÜSTƏQİLLİYİ VƏ TƏRƏQQİSİ

# RESPUBLİKA

TƏSİSÇİ: AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN İŞLƏR İDARƏSİ VƏ QƏZETİN REDAKSİYA HEYƏTİ

25 İYUL 2018-ci il ÇƏRŞƏNBƏ № 162 (6195) GÜNDƏLİK İCTİMAİ-SİYASİ, SOSİAL-İQTİSADİ QƏZET WWW.RESPUBLICA-NEWS.AZ

## Yunanıstan Respublikasının Prezidenti Zati-aliləri cənab Prokopis Pavlopulosa

Hörmətli cənab Prezident,

Afina yaxınlığında tüğyan edən meşə yanğınları nəticəsində çoxsaylı insan tələfatı və yaralananlar barədə xəbər məni olduqca kədərləndirdi.

Bu faciə ilə əlaqədar Sizə, həlak olanların ailələrinə və yaxınlarına, bütün Yunanıstan xalqına şəxsən öz adımdan və Azərbaycan xalqı adından dərin hüznlə başsağlığı verir, yaralananların tezliklə sağalmasını arzulayıram.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti.**

**Bakı şəhəri, 24 iyul 2018-ci il.**

## Qaradağ rayonunun Lökbatan-Qızıldaş avtomobil yolunun tikintisi ilə bağlı tədbirlər haqqında

## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

**1.** Qırx altı min nəfər əhalinin yaşadığı 4 yaşayış məntəqəsini birləşdirən Lökbatan-Qızıldaş avtomobil yolunun tikintisi məqsədi ilə Azərbaycan Respublikasının 2018-ci il dövlət büdcəsinin dövlət əsaslı vəsait qoyuluşu xərclərinin bölgüsündə avtomobil yollarının tikintisi və yenidən qurulması üçün nəzərdə tutulmuş vəsaitin 7,9 milyon (yeddi milyon doqquz yüz min) manatı Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinə ayrılsın.

**2.** Azərbaycan Respublikasının Maliyyə Nazirliyi bu Sərəncamın 1-ci hissəsində göstərilən məbləğdə maliyyələşməni təmin etsin.

**3.** Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti.**

**Bakı şəhəri, 24 iyul 2018-ci il.**

## "İcarə haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2018-ci il 29 iyun tarixli 1204-VQD nömrəli Qanununun tətbiqi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 19-cu və 32-ci bəndlərini rəhbər tutaraq, "İcarə haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2018-ci il 29 iyun tarixli 1204-VQD nömrəli Qanununun qüvvəyə minməsi ilə əlaqədar həmin Qanunun tətbiqini təmin etmək məqsədilə **qərara alıram:**

**1.** Azərbaycan Respublikasının Nazirlər Kabineti:

*1.1.* Azərbaycan Respublikası qanunlarının və Azərbaycan Respublikası Prezidentinin aktlarının "İcarə haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının Qanununa uyğunlaşdırılması ilə bağlı təkliflərini üç ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

*1.2.* Azərbaycan Respublikası Nazirlər Kabinetinin normativ hüquqi aktlarının həmin Qanuna uyğunlaşdırılmasını üç ay müddətində təmin edib Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

*1.3.* mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının "İcarə haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə" Azərbaycan Respublikasının Qanununa uyğunlaşdırılmasını nəzarətdə saxlasın və bunun icrası barədə beş ay müddətində Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

*1.4.* həmin Qanundan irəli gələn digər məsələləri həll etsin.

**2.** Müəyyən edilsin ki, "İcarə haqqında" Azərbaycan Respublikası Qanununun 8-ci maddəsinin 1-ci hissəsinin dördüncü abzasında "müvafiq icra hakimiyyəti orqanı" və "orqan" dedikdə Azərbaycan Respublikasının Prezidenti nəzərdə tutulur.

**3.** Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının və normativ xarakterli aktların "İcarə haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının Qanununa uyğunlaşdırılmasını təmin edib Azərbaycan Respublikasının Nazirlər Kabinetinə məlumat versin.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti.**

**Bakı şəhəri, 16 iyul 2018-ci il.**

## "İcarə haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə

## Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 12-ci və 13-cü bəndlərini rəhbər tutaraq **qərara alır:**

"İcarə haqqında" Azərbaycan Respublikası Qanununun (Azərbaycan Respublikası Ali Sovetinin Məlumatı, 1992, N 9, maddə 221, N 17, maddə 736; Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1997, N 3, maddə 226; 1999, N 1, maddə 8; 2001, N 11, maddə 683; 2002, N 5, maddə 241, N 12, maddə 706; 2003, N 1, maddə 16; 2017, N 6, maddə 1057) 8-ci maddəsinin 1-ci hissəsinin dördüncü abzasında "Qanunla" sözündən sonra "və müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən" sözləri əlavə edilsin.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti.**

**Bakı şəhəri, 29 iyun 2018-ci il.**

## "Yol hərəkəti haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə" Azərbaycan Respublikasının 2018-ci il 29 iyun tarixli 1220-VQD nömrəli Qanununun tətbiqi və "Yol hərəkəti haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 1998-ci il 22 noyabr tarixli 24 nömrəli Fərmanında dəyişikliklər edilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 19-cu və 32-ci bəndlərini rəhbər tutaraq, "Yol hərəkəti haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə" Azərbaycan Respublikasının 2018-ci il 29 iyun tarixli 1220-VQD nömrəli Qanununun qüvvəyə minməsi ilə əlaqədar həmin Qanunun tətbiqini təmin etmək məqsədi ilə **qərara alıram:**

**1.** Azərbaycan Respublikasının Nazirlər Kabineti:

*1.1.* Azərbaycan Respublikası qanunlarının və Azərbaycan Respublikası Prezidentinin aktlarının "Yol hərəkəti haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə" Azərbaycan Respublikasının Qanununa uyğunlaşdırılması ilə bağlı təkliflərini üç ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

*1.2.* Azərbaycan Respublikası Nazirlər Kabinetinin normativ hüquqi aktlarının həmin Qanuna uyğunlaşdırılmasını üç ay müddətində təmin edib Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

*1.3.* mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının həmin Qanuna uyğunlaşdırılmasını nəzarətdə saxlasın və bunun icrası barədə beş ay müddətində Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

*1.4.* həmin Qanundan irəli gələn digər məsələləri həll etsin.

**2.** Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının və normativ xarakterli aktların "Yol hərəkəti haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə" Azərbaycan Respublikasının Qanununa uyğunlaşdırılmasını təmin edib Azərbaycan Respublikasının Nazirlər Kabinetinə məlumat versin.

**3.** "Yol hərəkəti haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 1998-ci il 22 noyabr tarixli 24 nömrəli Fərmanında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1998, N 11, maddə 666; 2001, N 7, maddə 459; 2003, N 10, maddələr 546, 571; 2004, N 8, maddə 617, N 12, maddə 1005; 2006, N 9, maddə 743; 2008, N 8, maddə 719; 2009, N 4, maddə 226, N 8, maddə 630; 2010, N 7, maddə 606; 2011, N 6, maddə 510; 2012, N 5, maddə 423, N 11, maddə 1079; 2014, N 9, maddə 1043; 2015, N 2, maddələr 110, 140, N 6, maddə 707, N 10, maddə 1116; 2016, N 3, maddə 456, N 4, maddələr 662, 666, N 6, maddə 1062, N 11, maddə 1839; 2017, N 5, maddə 758, N 8, maddə 1521; 2018, N 2, maddələr 169, 197, N 4, maddə 677; Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 26 iyun tarixli 151 nömrəli və 6 iyul tarixli 180 nömrəli fərmanları) aşağıdakı dəyişikliklər edilsin:

*3.1.* 2.7-ci bənddə "Qanunun" sözündən sonra "30-cu maddəsinin VIII hissəsinin ikinci abzasının üçüncü cümləsində, üçüncü abzasının birinci cümləsində, dördüncü abzasının birinci cümləsində," sözləri əlavə edilsin;

**3.2.** aşağıdakı məzmunda 2.7-1-ci bənd əlavə edilsin:

"2.7-1. həmin Qanunun 30-cu maddəsinin VIII hissəsinin dördüncü abzasının birinci və ikinci cümlələrində "müvafiq icra hakimiyyəti orqanının informasiya sistemi" dedikdə Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin "ASAN ödəniş" sistemi nəzərdə tutulur;".

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti.**

**Bakı şəhəri, 16 iyul 2018-ci il.**

## "Yol hərəkəti haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə

## Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 23-cü bəndini rəhbər tutaraq **qərara alır:**

"Yol hərəkəti haqqında" Azərbaycan Respublikasının Qanununda (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1998, N 9, maddə 564; 2001, N 5, maddə 298, N 11, maddələr 676, 698; 2002, N 1, maddə 9, N 8, maddə 463; 2003, N 8, maddə 424; 2004, N 2, maddə 57, N 11, maddə 901; 2005, N 4, maddə 277, N 10, maddə 874, N 11, maddə 993; 2006, N 12, maddə 1027; 2007, N 6, maddə 560, N 11, maddələr 1053, 1091; 2008, N 2, maddə 49, N 6, maddələr 453, 463, N 7, maddə 602; 2009, N 2, maddə 47, N 4, maddə 210, N 12, maddə 948; 2010, N 7, maddə 598; 2011, N 2, maddə 71, N 4, maddə 255, N 6, maddə 469, N 12, maddə 1097; 2012, N 5, maddə 402, N 7, maddə 671; 2013, N 4, maddələr 362, 363, N 7, maddə 795, N 11, maddələr 1295, 1298; 2014, N 4, maddələr 343, 346, N 5, maddə 467, N 11, maddə 1352; 2015, N 1, maddə 2, N 2, maddələr 76, 79, 105, N 5, maddə 502, N 6, maddə 686, N 11, maddələr 1256, 1276; 2016, N 11, maddələr 1758, 1795; 2017, N 2, maddələr 138, 150; N 5, maddə 727, N 8, maddə 1507, N 10, maddə 1774, N 12 (I kitab), maddə 2215; 2018, N 2, maddələr 143, 157, N 4, maddə 645) aşağıdakı dəyişikliklər edilsin:

**1.** 30-cu maddə üzrə:

*1.1.* I hissəsinin ikinci cümləsində "nasaz olan" sözlərindən sonra "bu Qanunun 30-cu maddəsinin VI hissəsinin 1-ci bəndində nəzərdə tutulmuş" sözləri əlavə edilsin;

*1.2.* VI hissəsinə aşağıdakı məzmunda altıncı abzas əlavə edilsin:

"Növbəti texniki baxışın keçiriləcəyi gün müəyyən edilərkən bu maddənin VI hissəsində nəzərdə tutulmuş müddətlər əvvəlki texniki baxışın keçirildiyi gündən hesablanır. Nəqliyyat vasitəsinin növbəti texniki baxışın keçiriləcəyi gündən 20 gün ərzində texniki baxışdan keçirilməməsi Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsi ilə müəyyən edilmiş qaydada məsuliyyətə səbəb olur.";

*1.3.* VII hissənin 3-cü bəndi ləğv edilsin;

*1.4.* VIII hissədən "və saz nəqliyyat vasitəsinə texniki baxış talonu verir" sözləri çıxarılsın və aşağıdakı məzmunda ikinci - beşinci abzaslar əlavə edilsin:

"Bu Qanunun 30-cu maddəsinin VI hissəsinin 1-ci bəndində nəzərdə tutulmuş nəqliyyat vasitələrində bu Qanuna 1 saylı Əlavədə nəzərdə tutulmuş nasazlıqlar aşkar edildikdə nəqliyyat vasitəsinin sahibinə həmin nasazlıqlar barədə bildiriş verilir. Bildirişdə qeyd edilən nasazlıqlar aradan qaldırıldıqdan sonra nəqliyyat vasitəsinin həmin hissələrinə yenidən texniki baxış keçirilir. Bildirişdə qeyd edilən nasazlıqlar müəyyən edilmədikdə müvafiq icra hakimiyyəti orqanının mərkəzi informasiya sistemi vasitəsilə nəqliyyat vasitəsinin texniki baxışdan keçməsi barədə elektron talon tərtib olunur.

Bu Qanunun 30-cu maddəsinin VI hissəsinin 2-ci bəndində nəzərdə tutulmuş nəqliyyat vasitələri texniki baxışdan keçirildikdən sonra müvafiq icra hakimiyyəti orqanının mərkəzi informasiya sistemi vasitəsilə həmin nəqliyyat vasitəsinin texniki baxışdan keçməsi barədə elektron talon tərtib olunur. Texniki baxış zamanı bu Qanuna 1 saylı Əlavədə nəzərdə tutulmuş nasazlıqlar aşkar edildikdə nəqliyyat vasitəsinin sahibinə həmin nasazlıqlar barədə bildiriş verilir və həmin nazaslıqların aradan qaldırılması tövsiyə olunur. Bu Qanunun 30-cu maddəsinin VI hissəsində nəzərdə tutulmuş müddətdə nəqliyyat vasitəsi növbəti texniki baxışdan keçirilərkən bildirişdə qeyd edilən nasazlıqlar təkrar aşkar edilərsə həmin nasazlıqlar aradan qaldırılmayanadək nəqliyyat vasitəsinin texniki baxışdan keçməsi barədə elektron talon tərtib olunmur.

Müvafiq icra hakimiyyəti orqanının mərkəzi informasiya sistemi nəqliyyat vasitəsinin texniki baxışdan keçməsi barədə elektron talon tərtib olunduğu anda onu dərhal elektron qaydada müvafiq icra hakimiyyəti orqanının informasiya sisteminə göndərir. Müvafiq icra hakimiyyəti orqanının informasiya sistemi texniki baxış haqqında elektron talonu hər bir nəqliyyat vasitəsinin istifadəçisi üçün internet informasiya resursunda yaradılmış elektron kabinetə yerləşdirir və onu şəxsin elektron ünvanına (olduğu halda) göndərir.

Texniki baxışdan sonra beynəlxalq sərnişin və yük daşımalarında iştirak edən nəqliyyat vasitələrinin sahiblərinin müraciəti əsasında onlara, həmçinin kağız daşıyıcıda texniki baxış talonu verilir.".

**2.** "Yol hərəkəti haqqında" Azərbaycan Respublikasının Qanununa 1 saylı Əlavə "Nəqliyyat vasitələrinin istismarının qadağan edilməsinə səbəb olan nasazlıqların Siyahısı"nın adında "istismarının qadağan edilməsinə səbəb olan nasazlıqların" sözləri "nasazlıqlarının" sözləri ilə əvəz edilsin.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti.**

**Bakı şəhəri, 29 iyun 2018-ci il.**

# Azərbaycan beynəlxalq əməkdaşlıqda mühüm tərəfdaşdır

## *Dövlət başçısı deyib: "Biz Avrasiyanın enerji xəritəsini, demək olar ki, yenidən tərtib etmişik və buna davam edirik".*

**Enerji təhlükəsizliyi hər bir ölkənin sosial-iqtisadi inkişafında həlledici amildir. Buna görə də hər bir ölkə öz enerji təchizatının maksimum dərəcədə təmininə nail olmağa çalışır. Təbii mənbələrə malik olmayan dövlətlər isə özlərinə bu sahədə etibarlı tərəfdaş axtarırlar. Bu əlaqə qurulduqda, iqtisadi əməkdaşlıq qarşılıqlı mənafelər əsasında olduqda strateji tərəfdaşlığa səbəb olur. Belə xarakterli əlaqələrin sərhədi genişləndikcə təchizatçı və tranzit ölkənin siyasi nüfuzu və iqtisadi qüdrəti də artır. Azərbaycan bu tipli ölkələrdəndir. Azərbaycanda uğurla həyata keçirilmiş neft-qaz sektoruna aid müxtəlif beynəlxalq səviyyəli layihələr ölkə iqtisadiyyatını inkişaf etdirməklə yanaşı, olduqca geniş regional əməkdaşlıq üçün səbəb olub.**

Ölkə Prezidenti İlham Əliyevin son NATO sammitində iştirakı və Avropa İttifaqı üzv dövlətləri ilə əlaqələrin daha da səmərəli fazaya qalxması diqqəti xüsusi olaraq cəlb edir. İxrac olunan karbohidrogen ehtiyatları Avropanın enerji təhlükəsizliyini təmin etməklə yanaşı, bu zəmində qeyri-neft sahəsinin də stabil inkişafında əməkdaşlığın genişlənməsiinə səbəb olan amildir. Bu yaxınlarda İtaliya Prezidenti Sercio Mattarellanın ölkəmizə rəsmi səfəri, Azərbaycan və İtaliya tərəfindən rəsmi şəxslərlə yanaşı, enerji, tikinti, dizayn və memarlıq, infrastruktur, nəqliyyat, kənd təsərrüfatı, logistika, mühəndislik, sənaye sahələrində fəaliyyət göstərən 350-dək iş adamının iştirakı ilə Biznes forum keçirilməsi beynəlxalq iqtisadi və siyasi əlaqələrin daim yeni mərhələyə qalxmasından xəbər verir. Dövlət başçısı İlham Əliyevin Fransa prezidenti Emmanuel Makronun dəvəti ilə Fransada olması da inkişaf etmiş dövlətlərlə əməkdaşlığın yeni daha yüksək mərhələyə qədəm qoymasını təsdiq edir. Ölkəmizin rəhbəri bu səfər çərçivəsində Fransanın 11 şirkətinin nümayəndələri ilə




səmərəli görüşlər keçirib. Bu görüşlərin ölkələrimiz arasında iqtisadi əməkdaşlıq üçün böyük perspektivlərə yol açdığı vurğulanır. Azərbaycan ilə Fransa şirkətləri arasında 2 milyard dollardan çox dəyərində müqavilələr imzalanıb. Bu müqavilələr reallaşdırıldığı təqdirdə onların həcmi daha da artacaq. Həmçinin enerji təhlükəsizliyi məsələsi də müzakirə olunub və "Cənub Qaz Dəhlizi" layihəsinin uğurla icra edildiyi vurğulanıb. Neft-qaz sektoru, infrastruktur, nəqliyyat, kosmik sənaye, hava nəqliyyatı, metro tikintisi, hərbi-texniki sahələrdə əməkdaşlıq məsələləri də müzakirə olunub. Yaxın zamanlarda isə Avropanın daha bir iqtisadi nəhəngi - Almaniyanın kansleri Angela Merkelin ölkəmizə səfəri olacaqdır. Nəzərə alsaq ki, Azərbaycanın Avropa İttifaqına üzv ölkələrinin üçdə biri ilə strateji tərəfdaşlığı mövcuddur, dövlətimizin beynəlxalq əlaqə və nüfuzunun səviyyəsini təsəvvür edə bilərik.

**(davamı 3-cü səhifədə)**

# Xronika

## ÖTƏN GÜNLƏRİN TARİXİ ANLARI



*2018-ci il aprelin 11-də keçirilmiş Prezident seçkilərində xalqın böyük istəyi və seçimi ilə möhtərəm İlham Heydər oğlu Əliyev azad, ədalətli, şəffaf və demokratik şəraitdə yenidən Azərbaycan Respublikasının Prezidenti seçildi.*

*Prezidentin Azərbaycana, xalqa sədaqət andı içdiyi uğurlu gündən başlayaraq onun gərgin iş günü tükənməz enerji ilə, çoxcəhətli ictimai-siyasi fəaliyyətlə davam edir.*

*Böyük şəxsiyyət, ümummilli lider Heydər Əliyevin siyasi kursunu, onun keçdiyi şərəfli yolu ləyaqətlə davam etdirən möhtərəm İlham Əliyev hər bir Azərbaycan vətəndaşının prezidentidir. Ölkəmizin həyatında yeni mərhələnin reallaşması onun yorulmaz fəaliyyəti, dərin zəkası, uzaqgörənliyi ilə sıx bağlıdır.*

*İlham Əliyevin gündəlik gərgin əməli fəaliyyəti sayəsində ölkəmizin ictimai-iqtisadi və sosial həyatının misli görünməmiş yüksəlişi bütün dünya ictimaiyyətinin də diqqət mərkəzindədir. Bu gün Azərbaycan böyük yüksəliş yolundadır.*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 2018-ci il aprel ayının 18-dən başlayan gündəlik fəaliyyəti, səfərləri, görüşləri, çıxışları, nitqləri, məruzələri, müsahibələri və qəbulları ardıcıllıqla yada salınacaq, oxucuların nəzərinə çatdırılacaqdır. Burada həmin "Xronika–ötən günlərin tarixi anları" təqdim olunur.*

**"Respublika".**

Xronika Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsinin Prezident Kitabxanasının "Azərbaycan Respublikasının Prezidenti: Gündəlik fəaliyyətin xronikası" adlı elektron biblioqrafik göstəricisinin materialları əsasında hazırlanmışdır.

*(əvvəli 20, 21, 25 aprel, 2, 13, 20, 31 may, 8, 24, 30 iyun və 18 iyul tarixli saylarımızda)*

### 11 iyul 2018-ci il

- **Azərbaycan Prezidenti İlham Əliyevin Belçikaya səfəri:** Brüsseldə Avropa İttifaqı Şurasının prezidenti ilə görüş.



- **Azərbaycan Prezidenti İlham Əliyevin Belçikaya səfəri:** Azərbaycan Prezidenti İlham Əliyevin və Əfqanıstan Prezidenti Məhəmməd Əşrəf Qaninin görüşü.
- **Azərbaycan Prezidenti İlham Əliyevin Belçikaya səfəri:** Brüsseldə NATO-nun müttəfiq və tərəfdaş ölkələrinin dövlət və hökumət başçıları üçün qəbul təşkil olunub: Prezident İlham Əliyev qəbulda iştirak edib.

### 12 iyul 2018-ci il

- **Azərbaycan Prezidenti İlham Əliyevin Belçikaya səfəri:** BMT Baş katibinin siyasi məsələlər üzrə müavini ilə görüş.
- **Azərbaycan Prezidenti İlham Əliyevin Belçikaya səfəri:** Brüsseldə NATO-nun Əfqanıstanda Qətiyyətli Dəstək missiyası üzrə Şimali Atlantika Şurasının görüşü keçirilib: Azərbaycan Prezidenti İlham Əliyev görüşdə iştirak edib.

### 13 iyul 2018-ci il

- Prezident İlham Əliyevin yanında respublikanın hüquq-mühafizə orqanları rəhbərlərinin iştirakı ilə iclas keçirilib.
- Prezident İlham Əliyev İranın səhiyyə, müalicə və tibbi təhsil nazirinin başçılıq etdiyi nümayəndə heyətini qəbul edib.

### 14 iyul 2018-ci il

- **Pakistan İslam Respublikasının Prezidenti zati-aliləri cənab Məmnun Hüseynə:** Mastunq şəhərində törədilmiş partlayış nəticəsində çoxsaylı insan tələfatı ilə əlaqədar Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin başsağlığı.

### 16 iyul 2018-ci il

- **Rusiya Federasiyasının Prezidenti zati-aliləri cənab Vladimir Putinə:** Futbol üzrə XXI Dünya Çempionatının uğurla keçirilməsi münasibətilə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin təbriki.
- **Fransa Respublikasının Prezidenti zati-aliləri cənab Emmanuel Makrona:** XXI Dünya Çempionatında Fransa futbolçularının möhtəşəm qələbəsi və dünya çempionu adını qazanması münasibətilə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin təbriki.
- **Xorvatiya Respublikasının Prezidenti zati-aliləri xanım Kolinda Qrabar-Kitaroviçə:** Futbol üzrə XXI Dünya Çempionatında Xorvatiya yığma komandasının uğurlu çıxış edərək bu mötəbər turnirin gümüş medalını qazanması münasibətilə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin təbriki.

### 18 iyul 2018-ci il

- **İtaliya Prezidenti Sercio Mattarellanın Azərbaycana rəsmi səfəri:** Rəsmi qarşılanma mərasimi: Azərbaycan Prezidenti İlham Əliyev İtaliya Prezidenti Sercio Mattarellanı qarşıladı.
- **İtaliya Prezidenti Sercio Mattarellanın Azərbaycana rəsmi səfəri:** Azərbaycan və İtaliya prezidentlərinin təkbətək görüşü.



- **İtaliya Prezidenti Sercio Mattarellanın Azərbaycana rəsmi səfəri:** Azərbaycan-İtaliya sənədləri imzalanıb: Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və İtaliya Respublikasının Prezidenti Sercio Mattarellanın iştirakı ilə sənədlərin imzalanması mərasimi olub.
- **İtaliya Prezidenti Sercio Mattarellanın Azərbaycana rəsmi səfəri:** Azərbaycan və İtaliya prezidentlərinin geniş tərkibdə görüşü.

*(davamı növbəti saylarımızda)*

## "İcra məmurları haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə

## Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 6-cı bəndini rəhbər tutaraq, "Azərbaycan Respublikasının Cəzaların İcrası Məcəlləsində dəyişikliklər edilməsi haqqında" Azərbaycan Respublikasının 2017-ci il 1 dekabr tarixli 915-VQD nömrəli Qanununun icrası ilə əlaqədar **qərara alır:**

"İcra məmurları haqqında" Azərbaycan Respublikasının Qanununda (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2000, N 1, maddə 18; 2001, N 11, maddə 687, N 12, maddə 731; 2003, N 1, maddə 23; 2004, N 2, maddə 57, N 3, maddə 133; 2006, N 11, maddə 928; 2007, N 1, maddə 4, N 7, maddə 712; 2010, N 7, maddə 591; 2011, N 6, maddə 477, N 7, maddə 584, N 12, maddə 1092; 2013, N 7, maddə 788; 2015, N 3, maddə 252; 2016, N 6, maddə 991) aşağıdakı dəyişikliklər edilsin:

**1.** 1-ci maddəyə "icrasını" sözündən sonra ", habelə probasiya nəzarətini" sözləri əlavə edilsin.

**2.** 5-ci maddə aşağıdakı redaksiyada verilsin:

**"Maddə 5. İcra və probasiya xidmətinin fəaliyyətinin təşkili**

İcra məmurlarına həvalə olunmuş vəzifələrin həyata keçirilməsini müvafiq icra hakimiyyəti orqanı təmin edir.

Məhkəmələrin müəyyən olunmuş fəaliyyət qaydasının təmin edilməsi, habelə "İcra haqqında" Azərbaycan Respublikasının Qanununda nəzərdə tutulan icra sənədlərinin icrası üzrə icra məmurlarının fəaliyyəti icra xidmətini təşkil edir.

Bu Qanunun 6-cı maddəsində nəzərdə tutulmuş hallar istisna olmaqla, icra xidmətinə Azərbaycan Respublikasının Baş icra məmuru rəhbərlik edir.

Probasiya nəzarətinin həyata keçirilməsi, o cümlədən ictimai işlər növündə inzibati tənbehin icrası üzrə icra məmurlarının fəaliyyəti probasiya xidmətini təşkil edir.

Probasiya xidmətinə Azərbaycan Respublikasının Baş probasiya məmuru rəhbərlik edir.

İcra məmurlarının fəaliyyətinin əsasları Azərbaycan Respublikasının Cəzaların İcrası Məcəlləsi, İnzibati Xətalar Məcəlləsi, Mülki Prosessual Məcəllə, Cinayət-Prosessual Məcəllə, "İcra haqqında" Azərbaycan Respublikasının Qanunu və digər qanunvericilik aktları ilə müəyyən edilir.

Azərbaycan Respublikası Konstitusiya Məhkəməsində, Azərbaycan Respublikası Ali Məhkəməsində, Naxçıvan Muxtar Respublikasının Ali Məhkəməsində icra məmurları müvafiq olaraq Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin sədri, Azərbaycan Respublikası Ali Məhkəməsinin sədri, Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsinin sədri, digər məhkəmələrin icra məmurları müvafiq icra hakimiyyəti orqanı tərəfindən vəzifəyə təyin edilir və vəzifədən azad edilirlər.".

**3.** 6-cı maddə üzrə:

*3.1.* adında "xidmətinin" sözü "məmurlarının" sözü ilə əvəz edilsin;

*3.2.* mətninə "məmuru" sözündən sonra "və Azərbaycan Respublikasının Baş probasiya məmuru" sözləri əlavə edilsin və "xidmətinin" sözü "məmurlarının" sözü ilə əvəz edilsin.

**4.** 7-ci maddə üzrə:

*4.1.* birinci hissənin birinci abzasında və ikinci hissənin birinci abzasında "İcra məmuru" sözləri "İcra xidmətinin icra məmuru" sözləri ilə əvəz edilsin;

*4.2.* aşağıdakı məzmunda üçüncü hissə əlavə edilsin:

"Probasiya xidmətinin icra məmuru Azərbaycan Respublikasının Cəzaların İcrası Məcəlləsi və İnzibati Xətalar Məcəlləsi ilə müəyyən edilən vəzifələrlə yanaşı aşağıdakı vəzifələri də yerinə yetirir:

icraata daxil olmuş sənədlərin vaxtında, tam və düzgün icra edilməsi üçün tədbirlər görür;

üzərində probasiya nəzarəti həyata keçirilən şəxslərə və onların nümayəndələrinə iş materialları ilə tanış olmağa, onlardan çıxarış etməyə və ya həmin sənədlərin surətini çıxarmağa imkan yaradır;

üzərində probasiya nəzarəti həyata keçirilən şəxslərin müraciətlərinə baxır və müvafiq tədbirlər görür;

probasiya xidməti və ya qurumunun rəhbərinin göstərişlərini yerinə yetirir.".

**5.** 8-ci maddə üzrə:

*5.1.* birinci hissənin birinci abzasında və ikinci hissənin birinci abzasında "İcra məmurunun" sözləri "İcra xidməti icra məmurunun" sözləri ilə əvəz edilsin;

*5.2.* üçüncü hissə aşağıdakı redaksiyada verilsin:

"Probasiya xidməti icra məmurunun Azərbaycan Respublikasının Cəzaların İcrası Məcəlləsi və İnzibati Xətalar Məcəlləsi ilə müəyyən edilən hüquqları ilə yanaşı aşağıdakı hüquqları da vardır:

fəaliyyət istiqamətlərinə uyğun olaraq dövlət qurumlarına, hüquqi və fiziki şəxslərə müraciət etmək, sorğular vermək, məlumat, arayış və izahatlar almaq;

üzərində probasiya nəzarəti həyata keçirilən, lakin olduğu yer müəyyən edilməyən şəxslərin axtarılması ilə əlaqədar onların yaşayış yerlərinə daxil olmaq, orada baxış keçirmək və gizlənə biləcəyi ehtimal olunan bütün saxlama yerlərini açmaq və baxmaq;

polis və təhlükəsizlik orqanlarının köməyindən istifadə etmək;

qanunla nəzərdə tutulmuş qaydada və hallarda fiziki güc, xüsusi vasitə və xidməti silah tətbiq etmək.".

**6.** 11-ci maddənin beşinci hissəsinin birinci cümləsinə "cəzaların" sözündən sonra ", habelə probasiya nəzarəti ilə əlaqədar tədbirlərin" sözləri əlavə edilsin və "icra qurumunun rəhbəri" sözləri "icra və probasiya qurumlarının rəhbərləri" sözləri ilə əvəz edilsin.

**7.** 12-ci maddə üzrə:

*7.1.* ikinci hissədə "İcra məmurlarının həvəsləndirilməsi" sözləri "İcra xidməti icra məmurlarının həvəsləndirilməsi" sözləri ilə əvəz edilsin və "icra məmurlarının xüsusi fondunu" sözlərindən əvvəl "icra xidməti" sözləri əlavə edilsin;

*7.2.* üçüncü hissəyə "icra məmurlarının" sözlərindən əvvəl "icra xidməti" sözləri əlavə edilsin.

**8.** 13-cü maddə üzrə:

*8.1.* adında və ikinci hissədə "İcra xidmətinin" sözləri "İcra və probasiya xidmətlərinin" sözləri ilə əvəz edilsin;

*8.2.* birinci hissəyə aşağıdakı məzmunda ikinci cümlə əlavə edilsin:

"Probasiya xidmətinin maliyyələşdirilməsi və maddi-texniki təminatı Azərbaycan Respublikasının dövlət büdcəsi hesabına həyata keçirilir.".

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti.**

**Bakı şəhəri, 29 iyun 2018-ci il.**

## "Mülki müdafiə haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə

## Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 18-ci bəndini rəhbər tutaraq, "Azərbaycan Respublikasının Silahlı Qüvvələri haqqında" Azərbaycan Respublikasının 2017-ci il 29 dekabr tarixli 955-VQ nömrəli Qanununun tətbiqi ilə əlaqədar **qərara alır:**

"Mülki müdafiə haqqında" Azərbaycan Respublikasının Qanununda (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1998, N 4, maddə 222; 2004, N 4, maddə 202; 2005, N 4, maddə 278, N 12, maddə 1083) aşağıdakı dəyişikliklər edilsin:

**1.** 12-ci maddə üzrə:

*1.1.* birinci hissədə "qulluqçulardan və fəhlələrdən" sözləri "dövlət qulluqçularından və digər mülki işçilərdən" sözləri ilə əvəz edilsin;

*1.2.* üçüncü hissədə "Hərbi xidmət haqqında" Azərbaycan Respublikasının Qanununa" sözləri "Hərbi xidmətkeçmə haqqında" Əsasnaməyə, "Hərbi qulluqçuların statusu haqqında" və "Hərbi vəzifə və hərbi xidmət haqqında" Azərbaycan Respublikasının qanunlarına" sözləri ilə əvəz edilsin;

*1.3.* dördüncü hissə aşağıdakı redaksiyada verilsin:

"Mülki müdafiə qüvvələrinin dövlət qulluqçularının qulluğu "Dövlət qulluğu haqqında" Azərbaycan Respublikasının Qanunu, digər mülki işçilərin əmək münasibətləri isə Azərbaycan Respublikasının Əmək Məcəlləsi ilə tənzimlənir.".

**2.** 20-ci maddə aşağıdakı redaksiyada verilsin:

**"Maddə 20.** Mülki müdafiə qüvvələrinin fəaliyyətinə nəzarət

Mülki müdafiə qüvvələrinin fəaliyyətinə ümumi nəzarəti Azərbaycan Respublikası Silahlı Qüvvələrinin Ali Baş Komandanı həyata keçirir.

Mülki müdafiə qüvvələrinin fəaliyyətinə idarədaxili nəzarəti mülki müdafiə qüvvələrinin komandanlığı və müvafiq icra hakimiyyəti orqanının rəhbəri həyata keçirir.

Prokurorluq orqanları mülki müdafiə qüvvələrində qanunların icrasına nəzarəti qanunla müəyyən edilmiş hallarda və qaydada həyata keçirirlər.".

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti.**

**Bakı şəhəri, 12 iyun 2018-ci il.**

## "İcra məmurları haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə" Azərbaycan Respublikasının 2018-ci il 29 iyun tarixli 1207-VQD nömrəli Qanununun tətbiqi və "İcra məmurları haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2000-ci il 5 yanvar tarixli 246 nömrəli Fərmanında dəyişikliklər edilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 19-cu və 32-ci bəndlərini rəhbər tutaraq, "İcra məmurları haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə" Azərbaycan Respublikasının 2018-ci il 29 iyun tarixli 1207-VQD nömrəli Qanununun qüvvəyə minməsi ilə əlaqədar həmin Qanunun tətbiqini təmin etmək məqsədi ilə **qərara alıram:**

**1.** Azərbaycan Respublikasının Nazirlər Kabineti:

*1.1.* Azərbaycan Respublikası qanunlarının və Azərbaycan Respublikası Prezidentinin aktlarının "İcra məmurları haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə" Azərbaycan Respublikasının Qanununa uyğunlaşdırılması ilə bağlı təkliflərini üç ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

*1.2.* Azərbaycan Respublikası Nazirlər Kabinetinin normativ hüquqi aktlarının həmin Qanuna uyğunlaşdırılmasını üç ay müddətində təmin edib Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

*1.3.* mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının həmin Qanuna uyğunlaşdırılmasını nəzarətdə saxlasın və bunun icrası barədə beş ay müddətində Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

*1.4.* həmin Qanundan irəli gələn digər məsələləri həll etsin.

**2.** Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının və normativ xarakterli aktların "İcra məmurları haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə" Azərbaycan Respublikasının Qanununa uyğunlaşdırılmasını təmin edib Azərbaycan Respublikasının Nazirlər Kabinetinə məlumat versin.

**3.** "İcra məmurları haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2000-ci il 5 yanvar tarixli 246 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2000, N1, maddə 25; 2002, N 5, maddə 262, N 8, maddə 478; 2011, N 4, maddə 278) 2-ci hissəsinin üçüncü və beşinci abzaslarında "birinci və dördüncü" sözləri "birinci və yeddinci" sözləri ilə əvəz edilsin.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti.**

**Bakı şəhəri, 9 iyul 2018-ci il.**

## "Mülki müdafiə haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə" Azərbaycan Respublikasının 2018-ci il 12 iyun tarixli 1182-VQD nömrəli Qanununun tətbiqi və "Mülki müdafiə haqqında" Azərbaycan Respublikası Qanununun tətbiqi ilə əlaqədar bəzi məsələlər barədə" Azərbaycan Respublikası Prezidentinin 2000-ci il 15 iyul tarixli 375 nömrəli Fərmanında dəyişiklik edilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 19-cu və 32-ci bəndlərini rəhbər tutaraq, "Mülki müdafiə haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə" Azərbaycan Respublikasının 2018-ci il 12 iyun tarixli 1182-VQD nömrəli Qanununun qüvvəyə minməsi ilə əlaqədar həmin Qanunun tətbiqini təmin etmək məqsədi ilə **qərara alıram:**

**1.** Azərbaycan Respublikasının Nazirlər Kabineti:

*1.1.* Azərbaycan Respublikası qanunlarının və Azərbaycan Respublikası Prezidentinin aktlarının "Mülki müdafiə haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə" Azərbaycan Respublikasının Qanununa uyğunlaşdırılması ilə bağlı təkliflərini üç ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

*1.2.* Azərbaycan Respublikası Nazirlər Kabinetinin normativ hüquqi aktlarının həmin Qanuna uyğunlaşdırılmasını üç ay müddətində təmin edib Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

*1.3.* mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının həmin Qanuna uyğunlaşdırılmasını nəzarətdə saxlasın və bunun icrası barədə beş ay müddətində Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

*1.4.* həmin Qanundan irəli gələn digər məsələləri həll etsin.

**2.** Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının və normativ xarakterli aktların "Mülki müdafiə haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə" Azərbaycan Respublikasının Qanununa uyğunlaşdırılmasını təmin edib Azərbaycan Respublikasının Nazirlər Kabinetinə məlumat versin.

**3.** "Mülki müdafiə haqqında" Azərbaycan Respublikası Qanununun tətbiqi ilə əlaqədar bəzi məsələlər barədə" Azərbaycan Respublikası Prezidentinin 2000-ci il 15 iyul tarixli 375 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2000, N 7, maddə 515; 2005, N 7, maddə 596; 2008, N 8, maddə 719) 1-ci hissəsinin dördüncü abzası aşağıdakı redaksiyada verilsin:

"həmin Qanunun 20-ci maddəsinin ikinci hissəsində "müvafiq icra hakimiyyəti orqanı" dedikdə Azərbaycan Respublikasının Fövqəladə Hallar Nazirliyi nəzərdə tutulur.".

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti.**

**Bakı şəhəri, 9 iyul 2018-ci il.**

# Türkiyənin xarici işlər naziri ulu öndər Heydər Əliyevin məzarını və Şəhidlər xiyabanını ziyarət edib



**Azərbaycanda səfərdə olan Türkiyənin xarici işlər naziri Mövlud Çavuşoğlu iyulun 24-də Fəxri xiyabana gələrək xalqımızın ümummilli lideri, müasir müstəqil dövlətimizin memarı və qurucusu Heydər Əliyevin xatirəsini yad edib, məzarı önünə əklil qoyub.**

AZƏRTAC xəbər verir ki, görkəmli oftalmoloq-alim, akademik Zərifə xanım Əliyevanın da xatirəsi anılıb, məzarı üzərinə tər güllər düzülüb.

Sonra Mövlud Çavuşoğlu Şəhidlər xiyabanına gedərək Azərbaycanın müstəqilliyi və ərazi bütövlüyü uğrunda mübarizədə canlarından keçmiş qəhrəman Vətən övladlarının məzarlarını ziyarət edib, "Əbədi məşəl" abidəsinin önünə əklil qoyub.

Bakının ən hündür nöqtəsindən Azərbaycan paytaxtının mənzərəsini seyr edən nazirə Şəhidlər xiyabanının tarixi və şəhərdə görülən abadlıq-quruculuq işləri barədə məlumat verilib.

Daha sonra Türkiyənin xarici işlər naziri Şəhidlər xiyabanında şəhid türk əsgərlərinin xatirəsinə ucaldılmış abidəni ziyarət edərək önünə əklil qoyub, şəhidlik kitabəsinin üstünə gül dəstələri düzüb.



Jurnalistlərə müsahibəsində Mövlud Çavuşoğlu Türkiyədə yeni hökumətin qurulmasından sonra ənənəvi olaraq ilk xarici səfərini Azərbaycana etdiyini söyləyib. O, Rəcəb Tayyib Ərdoğanın Prezident seçiləndən sonra ilk xarici səfərini bir neçə gün öncə Azərbaycana etdiyini xatırladıb və bunun önəmini qeyd edib. Mövlud Çavuşoğlu Türkiyənin parlament sədrinin və milli müdafiə nazirinin Azərbaycana səfərlərinin gözlənildiyini söyləyib. Nazir Azərbaycana səfəri zamanı ölkələrimiz arasında münasibətlərə dair müzakirələrin aparılacağını vurğulayıb.

**AZƏRTAC**

*Baş nazir Novruz MƏMMƏDOV:*

# Azərbaycan ilə Türkiyə arasında dostluq və qardaşlıq münasibətləri ən yüksək səviyyədədir

**İyulun 24-də Azərbaycan Respublikasının Baş naziri Novruz Məmmədov ölkəmizdə səfərdə olan Türkiyə Respublikasının xarici işlər naziri Mövlud Çavuşoğlu ilə görüşüb.**



AZƏRTAC xəbər verir ki, görüşdə ulu öndər Heydər Əliyevin "Bir millət, iki dövlət" kəlamını xatırladan Baş nazir Novruz Məmmədov Azərbaycan və Türkiyə arasında münasibətlərin ən yüksək səviyyədə olduğunu vurğulayıb. Baş nazir bildirib ki, dost və qardaş ölkələr olan Azərbaycan ilə Türkiyə arasında çox möhkəm və sıx əməkdaşlıq əlaqələri mövcuddur. Bölgədə sabitlik, təhlükəsizlik və inkişaf üçün Azərbaycan-Türkiyə qardaşlıq münasibətləri mühüm əhəmiyyət daşıyır.

Yüksək səviyyəli qarşılıqlı səfərlərin ölkələrimiz arasındakı əlaqələrin daha da möhkəmlənməsində mühüm rol oynadığını vurğulayan Azərbaycanın Baş naziri bu yaxınlarda Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğanın andiçmə mərasimində iştirak etdiyini diqqətə çatdırıb. Türkiyə dövlətinin başçısının prezident seçkilərindən sonra ilk rəsmi səfərini Azərbaycana etməsinin ölkələrimizin dostluq və qardaşlıq münasibətlərinin göstəricisi olduğunu deyən Baş nazir bunun xalqlarımız arasında formalaşan çox gözəl ənənə olduğunu diqqətə çatdırıb. Dövlətlərimizin başçıları hər seçkidən sonra ilk səfərlərini qarşılıqlı olaraq dost ölkələrə etməklə bu ənənəni bütün dünyaya nümayiş etdirirlər.



"Qardaş Türkiyədə seçkilərdən sonra inkişafın yeni mərhələsi başlayır. Türkiyə hər zaman qarşıya qoyduğu məqsədlərə doğru inamla irəliləyib və bundan sonra da irəliləyəcək. Qardaş Türkiyənin uğurları bizim uğurlarımızdır. Bu nailiyyətlər bizi sevindirir",- deyə Novruz Məmmədov qeyd edib.

Baş nazir Azərbaycanın və Türkiyənin birgə təşəbbüsü ilə həyata keçirilən qlobal layihələrdən danışaraq bildirib ki, Bakı-Tbilisi-Ceyhan, Bakı-Tbilisi-Ərzurum, Bakı-Tbilisi-Qars, TANAP kimi layihələrin reallaşması ölkələrimiz arasındakı sarsılmaz qardaşlıq münasibətlərini təcəssüm etdirir. Bu layihələr təkcə bizim ölkələrin deyil, region xalqlarının rifahının artmasına, beynəlxalq əməkdaşlığın güclənməsinə töhfələr verir.

Ölkələrimizin bütün beynəlxalq təşkilatlarda uğurlu əməkdaşlıq etdiyini bildirən Baş nazir Novruz Məmmədov qeyd edib ki, Türkiyə Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin həlli işində də daim Azərbaycanın yanındadır və ölkəmizə böyük dəstək göstərir.

Türkiyənin xarici işlər naziri Mövlud Çavuşoğlu Novruz Məmmədovu Baş nazir təyin olunması münasibətilə təbrik edib, ona fəaliyyətində uğurlar arzulayıb. Yeni təyinatdan sonra ilk xarici səfərini Azərbaycana həyata keçirən Mövlud Çavuşoğlu ölkələrimiz arasında əməkdaşlığın daha da inkişaf etdirilməsi istiqamətində mühüm addımların atıldığını vurğulayaraq deyib ki, xalqlarımızın və dövlətlərimizin başçılarının sıx dostluq və qardaşlıq əlaqələri münasibətlərimizin daha da möhkəmlənməsində mühüm rol oynayır. Türkiyə və Azərbaycan prezidentlərinin bu münasibətlərinin bariz nümunəsinin bu yaxınlarda Brüsseldə keçirilən NATO Zirvə görüşündə bir daha şahidi olduq.

Görüşdə qarşılıqlı maraq doğuran məsələlər ətrafında fikir mübadiləsi aparılıb.

**AZƏRTAC**

# Azərbaycan və Türkiyə xarici işlər nazirlərinin görüşü olub

**İyulun 24-də Azərbaycanın xarici işlər naziri Elmar Məmmədyarov Türkiyənin xarici işlər naziri Mövlud Çavuşoğlu ilə görüşüb.**

AZƏRTAC xəbər verir ki, nazirlər iki qardaş ölkə arasında bərqərar olunmuş strateji münasibətlərin və ənənəvi dostluğun yüksələn xətlə irəlilədiyini məmnuniyyətlə qeyd ediblər. Bu mənada tərəflər Azərbaycan və Türkiyədə keçirilmiş prezident seçkilərində inamlı qələbə qazanan Prezident İlham Əliyev və Prezident Rəcəb Tayyib Ərdoğanın ilk səfərlərini müvafiq olaraq məhz Ankara və Bakıya etmələrinin Azərbaycan-Türkiyə qardaşlığının bariz nümunəsi olduğunu vurğulayıblar.



Nazirlər Azərbaycan ilə Türkiyə arasında dövlət başçıları səviyyəsində fəaliyyət göstərən Yüksək Səviyyəli Strateji Əməkdaşlıq Şurasının xüsusi əhəmiyyətini qeyd edib, Şuranın 2017-ci il 31 oktyabr tarixində Bakıda və 2018-ci il 25 aprel tarixində Ankarada keçirilmiş iclaslarının ölkələrimiz arasında strateji müttəfiqlik münasibətlərinin inkişafında başlıca rol oynayan amillər kimi səciyyələndiriblər.

Azərbaycan ilə Türkiyə arasında durmadan inkişaf edən əməkdaşlığın iki ölkə ilə bərabər, bütün bölgənin tərəqqisinə, sülhə və sabitliyə xidmət etdiyini qeyd edən nazirlər artıq fəaliyyətə başlamış Bakı-Tbilisi-Qars, Cənub Qaz Dəhlizi və TANAP layihələrinin əhəmiyyətinə toxunublar. Tərəflər ölkələrimiz arasındakı ikitərəfli əlaqələri tamamlayan Azərbaycan-Gürcüstan-Türkiyə, Azərbaycan-İran-Türkiyə, Azərbaycan-Türkmənistan-Türkiyə, Azərbaycan-Pakistan-Türkiyə kimi üçtərəfli əməkdaşlıq formatlarının praktiki vacibliyini vurğulayıblar.

Nazirlər Ermənistanın Azərbaycana qarşı davam edən hərbi təcavüz və işğalının regional sülh və təhlükəsizlik üçün ciddi təhlükə olduğunu bildiriblər. Mövlud Çavuşoğlu Ermənistan-Azərbaycan münaqişəsi ilə əlaqədar Türkiyənin mövqeyini bir daha ifadə edib, münaqişənin BMT Təhlükəsizlik Şurasının qətnamələri əsasında Azərbaycanın beynəlxalq səviyyədə tanınmış sərhədləri daxilində ərazi bütövlüyü və suverenliyi çərçivəsində həll edilməli olduğunu diqqətə çatdırıb.

Aparılan fikir mübadiləsi zamanı Azərbaycan və Türkiyənin müxtəlif beynəlxalq təşkilatlar çərçivəsində əməkdaşlığının səviyyəsindən məmnunluq bildirilib və bu istiqamətdə birgə səylərin davam etdirilməsinə razılıq ifadə edilib.

Görüş əsnasında ikitərəfli və çoxtərəfli gündəliyə aid məsələlər ətrafında geniş fikir mübadiləsi aparılıb.

**AZƏRTAC**

*Mövlud Çavuşoğlu:*

# Türkiyə və Azərbaycanın həyata keçirdiyi birgə layihələr regionda böyük iqtisadi inkişafa səbəb olacaq

**Türkiyə və Azərbaycanın birgə fəaliyyəti təkcə ölkələrimiz deyil, bütövlükdə region üçün önəmlidir. Ölkələrimizin həyata keçirdiyi birgə layihələr regionda böyük iqtisadi inkişafa səbəb olacaq.**




Bu fikirləri iyulun 24-də Türkiyənin xarici işlər naziri Mövlud Çavuşoğlu azərbaycanlı həmkarı Elmar Məmmədyarov ilə birgə mətbuat konfransında deyib.

Nazir qeyd edib ki, bu gün bir çox ölkələr Bakı-Tbilisi-Qars layihəsinə qoşulmaq istəyirlər. İki qardaş ölkənin əməkdaşlığı enerji sahəsində daha da genişlənir və dərinləşir. Biz hər sahədə sıx əməkdaşlıq edirik.

Mövlud Çavuşoğlu vurğulayıb ki, Azərbaycan və Türkiyə qardaş ölkələrdir. Qarşıda görüləcək işlərimiz çoxdur. Beynəlxalq təşkilatlarda da fəaliyyətimizi gücləndirməyi nəzərdə tuturuq. Bu gün beynəlxalq təşkilatlarda irqçilik, ayrı-seçkilik daha çox özünü büruzə verir. Bu baxımdan Azərbaycan və Türkiyə beynəlxalq təşkilatlarda birgə fəaliyyəti gücləndirəcək.

**AZƏRTAC**

# Azərbaycan beynəlxalq əməkdaşlıqda mühüm tərəfdaşdır

*Dövlət başçısı deyib: "Biz Avrasiyanın enerji xəritəsini, demək olar ki, yenidən tərtib etmişik və buna davam edirik".*

**(əvvəli 1-ci səhifədə)**

Təsadüfi deyil ki, İsrailin nüfuzlu ingilisdilli "The Jerusalem Post" qəzetində beynəlxalq münasibətlər sahəsində tanınmış ekspert Arye Qutun "Azərbaycanın Avropa İttifaqı və NATO ilə münasibətləri mühüm əhəmiyyət kəsb edir və strateji xarakter daşıyır" sərlövhəli məqaləsi dərc olunub. Düşünülmüş siyasətlə qurulan əlaqələrdə iqtisadi-siyasi münasibətlər bir-birini tamamlayır. Azərbaycan Prezidenti İlham Əliyev Azərbaycan-İtaliya biznes forumundakı çıxışında bu barədə vurğulayıb: "Sizin Azərbaycana səfəriniz bir daha bizim strateji tərəfdaşlıq əlaqələrimizi təsdiqləyir. Dünən bir sıra məsələlər ətrafında çox açıq, səmimi fikir mübadiləsi aparılmışdır. Biz istəyirik ki, İtaliya-Azərbaycan əlaqələri bundan sonra da uğurla, sürətlə inkişaf etsin. Prezidentin səfəri bu əlaqələrin inkişafına çox güclü təkan verir. Əlbəttə ki, siyasi əlaqələr yüksək səviyyədə olduqda biznes dairələri də bunu dərhal görür, dərk edir və öz addımlarını atmağa başlayır. Bizim siyasi əlaqələrimiz, - biz dünən də bu barədə cənab Prezidentlə fikir mübadiləsi apardıq, - ən yüksək səviyyədədir. Deyə bilərəm ki, mükəmməldir, həm ikitərəfli formatda, həm beynəlxalq təşkilatlar çərçivəsindəki əməkdaşlıq çox müsbətdir". Daim güclənən beynəlxalq əməkdaşlıq, həm də bölgədə sülhün, sabitliyin qorunmasını təmin edir. Beləliklə, hazırda Azərbaycan Avropanın enerji təhlükəsizliyində etibarlı tərəfdaş, Avrasiya məkanında mühüm tranzit və iqtisadiyyatın müxtəlif sahələrinə investisiya yatırılması üçün cəlbedici ölkə, yerləşdiyi regionda sülhün, əmin-amanlığın qarşılıqlı maraqlara əsaslanan əməkdaşlığın qarantıdır. Bu siyasət təbii ki, qarşı tərəfin də marağında olduğu üçün ölkəmizlə əlaqələrin genişləndirilməsində maraqlı dövlətin sayı daim artmaqdadır. Artıq Azərbaycan dünyada iqtisadi əməkdaşlığın davamlı güclənməsinə, sabitliyə, qarşılıqlı anlaşmaya, mədəniyyətlərarası dialoqa əhəmiyyətli dərəcədə öz töhfəsini verməkdədir. 2003-cü ildə Bakı-Tbilisi-Ceyhan neft kəmərinin təməli qoyulmuş, 2006-cı ildə istifadəyə verilmişdir. Bu kəmər bütövlükdə bölgənin və bəlkə də qitənin enerji xəritəsini əsaslı şəkildə dəyişdirə bilmişdir. BTC təkcə Azərbaycan neftinin dünya bazarlarına çıxarılması üçün deyil, eyni zamanda yeni dəhlizin açılması üçün tarixi bir addım idi. Artıq bu dəhliz işə düşəndən sonra növbəti mərhələdə böyük "Şahdəniz" yatağının qaz ehtiyatlarının dünya bazarına çıxarılması üçün Bakı-Tbilisi-Ərzurum qaz kəməri tikilmiş, 2007-ci ildə rəsmən açılmışdır. XXI əsrin layihəsi—Yeni Cənub Qaz Dəhlizi hazırda Avropa dövlətlərinin diqqət mərkəzindədir.

Ümummilli liderimiz Heydər Əliyev dövlət quruculuğunda iqtisadiyyatın əsas rol oynadığını əla bilirdi. Müstəqilliyini yeni bərpa etmiş Azərbaycanın dağılmış sosalist ictimai formasiyasını bazar iqtisadiyyatı əvəzləməli idi. Keçid dövründə isə iqtisadiyyatın dirçəldilməsi üçün ölkənin əsas sərvəti olan neftin dünya bazarına çıxarılması üçün beynəlxalq investisiyanı cəlb etmək lazım idi. Uzaqgörən rəhbər milli maraqlara əsaslanan neft strategiyasını hazırladı. Bu strategiya həm Azərbaycanın neft sənayesini dirçəltməli, həm də Mərkəzi Asiyanın karbohidrogen ehtiyatlarının Azərbaycan ərazisi vasitəsilə dünyanən ən böyük bazarı Avropaya çıxarılmasını təmin etməli idi. Həyata keçiriləcək layihələr Azərbaycanı regionda hasilatçı, istehsalçı və tranzit ölkəyə çevirməklə yanaşı, onun nüfuz və qüdrətini də artıracaqdı. Təbii ki, Azərbaycanın inkişafının çox güclü beynəlxalq əleyhdarları vardı. Onlar ölkənin inkişafının təməl daşı və sürət lokomotivi olan Heydər Əliyevin neft strategiyasının həyata keçməsinə var qüvvə ilə mane olmağa çalışırdılar. Heydər Əliyevin məharətli, müdrik, uzaqgörən siyasi gedişləri və yenilməz iradəsi ilə bütün maneələr dəf edildi. Ölkəmizin paytaxtı Bakıda I Beynəlxalq Xəzər neft, qaz, neftayırma, neft kimyasına dair sərgi və konfrans keçirildi. Bu sərgi və konfrans böyük rezonansa səbəb oldu. Təsadüfi deyil ki, ondan bir neçə ay sonra 1994-cü il sentyabr ayının 20-də Bakıda dünyanın 11 transmilli neft şirkətinin iştirakı ilə "Əsrin Müqaviləsi" imzalandı. Beləliklə, Azərbaycan Xəzər dənizi hövzəsində, Orta Asiyadan tutmuş Qərbin çox böyük bir hissəsini əhatə edən ərazidə ilk beynəlxalq iqtisadi, siyasi əməkdaşlığın bünövrəsini qoydu. Bu kontraktın reallaşmasının Azərbaycanın sosial-iqtisadi inkişafında misilsiz əhəmiyyəti var idi. Belə ki, beynəlxalq investisiyanın cəlb olunması ilə dirçələn neft, qaz ixracatı sahəsinin ölkəyə gətirəcəyi gəlir qeyri-neft sektorunun da bərpasına və inkişafına yönələcəkdi.

Artıq həmin tarixi gündən 24 il keçir. Heydər Əliyevin neft strategiyasının həyata keçirilməsi nəticəsində ölkəmizin qeyri-neft sektoru da sürətli və davamlı inkişaf yoluna qədəm qoyub. Bazar iqtisadiyyatının əsasını təşkil edən özəl sektor da güclü inkişaf edir. Ölkənin ümumi daxili məhsulunun 80 faizindən çoxu bu sektorun payına düşür. Real iqtisadiyyatın hərtərəfli inkişafı ümumən iqtisadiyyatın şoxşaxəliliyini təmin edən amildir. Bu gün ulu öndər Heydər Əliyevin strateji inkişaf kursunu uğurla həyata keçirən dövlət başçısı İlham Əliyev iqtisadiyyatın şaxələndirilməsini prioritet elan edib. Belə ki, on il ərzində bugünkü ÜDM-in həcmi iki dəfə artmalıdır. Sosial-iqtisadi sahədə gedən inkişafın davamlılığı və artımın sabitliyi və yüksək tempi qarşıya qoyulan məqsədə çatılacağından xəbər verir. Azərbaycanda həyata keçirilən iqtisadi model ölkəni yerləşdiyi regionun liderinə və söz sahibinə çevirib. Qeyri-neft sektoru sürətlə inkişaf etsə də neft sektoru öz əhəmiyyətini saxlamaqdadır. Bu gün dünyada enerji daşıyıcıları yenə də beynəlxalq iqtisadiyyatda öz strateji mövqeyini qorumaqdadır. Zəngin ehtiyatlara malik Azərbaycan artıq Avropanın və bir çox ölkələrin enerji təhlükəsizliyinin təminində mühüm və etibarlı tərəfdaşdır və ən önəmli cəhətlərdən biri də odur ki, neft və qazı dünya bazarına şaxələndirilmiş sistemlə çatdırır. Şaxələndirilmiş neft-qaz kəmərləri sisteminin reallığı dövlətin balanslaşdırılmış siyasi gedişlərinin məntiqi nəticəsidir. Azərbaycandan neft və qaz 7 kəmərlə tam təhlükəsiz şəraitdə nəql olunurdu, TANAP qaz kəmərinin də bu dəhlizə əlavə olunması Azərbaycanın Avrasiya iqtisadi məkanında ən mühüm təhlükəsiz enerji dəhlizi olmasını bir daha sübut etmişdir. Heydər Əliyev karbohidrogen ehtiyatlarının ölkələrin iqtisadi inkişafındakı əhəmiyyətini çox gözəl bilir və perspektivdə yanacaq təhlükəsizliyinin rolunun yüksək səviyyədə artacağını da aydınca görürdü. Ulu öndərin strateji kursu bu gün Azərbaycanın ölkə başçısı İlham Əliyein rəhbərliyi ilə müasir çağırışlara uğurla cavab verən və müvəffəqiyyətlə həyata keçirilən mükəmməl bir konsepsiyadır. Dövlət başçısı Azərbaycan-İtaliya biznes forumundakı çıxışında ölkəmizin reallaşdırdığı enerji layihələrinin beynəlxalq əhəmiyyəti barədə demişdir: "Bildiyiniz kimi, biz böyük enerji layihələrini uğurla icra etmişik. Biz dənizləri birləşdiririk. Xəzər dənizini Qara dənizlə neft kəməri ilə birləşdirdik. Ondan sonra Xəzər dənizini Aralıq dənizi ilə neft kəməri ilə birləşdirdik. Bunlar tarixi layihələrdir. Biz Avrasiyanın enerji xəritəsini, demək olar ki, yenidən tərtib etmişik və buna davam edirik. Hazırda isə biz "Cənub Qaz Dəhlizi" layihəsini uğurla icra edirik. Bu barədə də qısa məlumat vermək istərdim. Cənub Qaz Dəhlizi dörd layihədən ibarətdir. Nəhəng "Şahdəniz" qaz yatağının işlənilməsinin ikinci fazası - bu layihə başa çatıb. Cənubi Qafqaz Qaz Kəməri, hansı ki, Azərbaycan qazını Gürcüstan istiqamətinə göndərir. Trans-Anadolu qaz kəməri - TANAP, bu da Türkiyə ərazisindən çəkilən qaz kəməridir və Trans-Adriatik qaz kəməri - TAP. Bu dörd layihədən üçü artıq reallaşıb. Bu ilin may ayında Bakı şəhərində Cənub Qaz Dəhlizinin, iyun ayında isə Türkiyədə TANAP layihəsinin rəsmi açılışları olmuşdur. Maliyyə tutumu 40 milyard dollardan çox olan bu nəhəng layihə bir neçə ölkəni, bir çox şirkətləri birləşdirir. Bu layihə başa çatmaq üzrədir və dörd layihənin üçü müvəffəqiyyətlə başa çatdırılıb. Beləliklə, yaxın zamanlarda Azərbaycan qazı Avropa İttifaqı məkanında öz yerini tutacaqdır". Bu gün aparılan düşünülmüş siyasət nəticəsində Azərbaycan bölgənin qüdrətli dövləti səviyyəsinə çatmışdır. Azərbaycan rəhbərliyi qloballaşma şəraitində öz ölkəsinin geo-siyasi yerini uzaqgörənliklə qiymətləndirib. Yeni iqtisadi siyasətdə karbohidrogen ehtiyatlarının rolu heç də azalmamış, əksinə artmışdır. Bu gün geniş və səmərəli əməkdaşlıq nəticəsində qloballaşan iqtisadiyyatda həyata keçən,effektiv layihə kimi yer tutan BTC neft və BTƏ qaz kəmərləri öz iqtisadi və siyasi səmərəsini vermişdır, Cənub Qaz Dəhlizi layihəsinin sona çatması isə Azərbaycanın regional mövqeyinə çox mühüm siyasi, iqtsadi dividendlər əlavə edəcəkdir".

**Ataş CƏBRAYILOV,**
**"Respublika".**

# DTX-nin Heydər Əliyev adına Akademiyasının növbəti buraxılışına həsr olunmuş təntənəli mərasim keçirilib



**İyulun 24-də Dövlət Təhlükəsizliyi Xidmətinin (DTX) Heydər Əliyev adına Akademiyasının növbəti buraxılışına həsr olunmuş təntənəli mərasim keçirilib.**

DTX-nin ictimai əlaqələr şöbəsindən AZƏRTAC-a bildiriblər ki, tədbirdə Azərbaycan Respublikası Prezidentinin hüquq mühafizə orqanları ilə iş və hərbi məsələlər üzrə köməkçisi-şöbə müdiri Fuad Ələsgərov, Dövlət Təhlükəsizliyi Xidmətinin rəisi, Azərbaycanın Milli Qəhrəmanı, general-leytenant Mədət Quliyev, DTX-nin rəhbər işçiləri, təhlükəsizlik orqanlarının veteranları, Akademiyanın professor-müəllim heyəti və məzunların valideynləri iştirak ediblər.

Əvvəlcə mərasim iştirakçıları ümummilli lider Heydər Əliyevin əziz xatirəsini ehtiramla yad edərək abidəsi önünə əklil qoyublar.

Sonra Döyüş Bayrağı hərbi marşın sədaları altında sıra meydanına gətirilib.

Ulu öndər Heydər Əliyevin və Azərbaycanın müstəqilliyi və ərazi bütövlüyü uğrunda canlarını qurban vermiş qəhrəman Vətən övladlarının əziz xatirələri bir dəqiqəlik sükutla yad olunub, dövlət himni səsləndirilib.

Azərbaycan Respublikası Prezidentinin köməkçisi Fuad Ələsgərov dövlətimizin başçısı, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin adından buraxılış münasibətilə Akademiyanın şəxsi heyətini təbrik edərək xidmətdə uğurlar arzulayıb. O, ümummilli lider Heydər Əliyevin adını daşıyan xüsusi təyinatlı ali tədris ocağını bitirmiş gənc zabitlərin əldə etdikləri xüsusi bilikləri Vətənin müstəqilliyinin və təhlükəsizliyinin təmin olunması istiqamətində uğurla tətbiq edəcəklərinə, Ali Baş Komandanın sədaqətli və etibarlı əsgərləri olacaqlarına əminliyini bildirib.

Dövlət Təhlükəsizliyi Xidmətinin rəisi, general-leytenant Mədət Quliyev çıxış edərək buraxılış münasibətilə məzunları, onların valideynlərini, Akademiyanın professor-müəllim heyətini təbrik edib, gənc zabitlərə gələcək məsuliyyətli və şərəfli xidmətlərində müvəffəqiyyətlər arzulayaraq tapşırıq və tövsiyələrini verib, qarşıda duran vəzifələrdən danışıb.

General-leytenant Mədət Quliyev məzunların xidmətə başlayacaqları səhərdə əzmlə çalışmalarının, cəsur, qətiyyətli və prinsipial zabit kimi xidməti vəzifələrini vicdanla yerinə yetirmələrinin ümummilli lider Heydər Əliyevin vətənpərvərlik və peşəkarlıq məktəbinə, dövlətçilik maraqlarının qorunması amallarına sədaqət göstəricisi olduğunu vurğulayıb.

Xidmət rəisi qeyd edib ki, Prezident İlham Əliyevin rəhbərliyi ilə ölkəmizin bütün həyati əhəmiyyətli sahələrində həyata keçirilən uzaqgörən və uğurlu siyasət sayəsində Azərbaycan böyük nüfuz qazanaraq gündən-günə qüdrətlənir. Ancaq dövlətimizin bu inkişafını gözü götürməyən müəyyən qüvvələr tərəfindən bəzən ölkədə ictimai-siyasi sabitliyi və təhlükəsizliyi pozmağa uğursuz və cılız cəhdlər göstərilir. Lakin bunun qarşısı Ali Baş Komandan İlham Əliyevin qətiyyəti, möhkəm iradəsi və müdrik rəhbərliyi ilə hüquq mühafizə orqanlarının yüksək əlaqələndirilmə şəraitində operativ müdaxiləsi nəticəsində çevik və peşəkarlıqla alınır.

Dövlət Təhlükəsizliyi Xidmətinin rəisi bildirib ki, ötən günlərdə ölkəmizdə sabitliyin və təhlükəsizliyin əleyhinə yönəlmiş, dövlət hakimiyyət nümayəndəsinə və hüquq mühafizə orqanları əməkdaşlarına qarşı törədilmiş namərd terror aktları və digər hüquqazidd əməllərin dərhal xalqımızda həddsiz hiddət doğuraraq qətiyyətlə pislənilməsi, xainlərin sərt cəzalandırılmasına dair haqlı ictimai tələb, eyni zamanda, düşmənlərə xalq-dövlət həmrəyliyinin, vətəndaş-iqtidar birliyinin sarsılmazlığını bir daha bariz nümayiş etdirib.

General-leytenant Mədət Quliyev qlobal və regional xarakterli təhdidlərin artdığı şəraitdə təhlükəsizliyə cavabdeh orqanların əməkdaşlarından daim yüksək savad, peşəkarlıq, əməliyyat-döyüş hazırlığı, tapşırıqların icrasında çeviklik və sərişdə tələb olunduğunu bir daha diqqətə çatdıraraq deyib: "ümid edirəm ki, Ulu Öndərin adını daşıyan Akademiyanı uğurla bitirən gənc zabitlərimiz burada qazanılan xüsusi biliklər sayəsində Dövlət Təhlükəsizliyi Xidmətinin müxtəlif struktur bölmələrində, ərazi orqanlarında vəzifə borclarını sədaqət və əzmlə davam etdirəcəklər".

DTX rəisi Mədət Quliyev əminliklə bildirib ki, Xidmətin şəxsi heyəti Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan İlham Əliyevin bütün əmr və göstərişlərini bundan sonra da dərhal və vicdanla yerinə yetirəcək.

Sonra Azərbaycan Respublikası Prezidentinin köməkçisi Fuad Ələsgərov və general-leytenant Mədət Quliyev Akademiyanı fərqlənmə ilə bitirən gənc zabitlərə diplomları təqdim ediblər.

Digər məzunlara da diplomlar təqdim olunduqdan sonra Akademiyanın zabit və kursantları orkestrin müşayiəti ilə hərbi marşla tribunanın önündən keçiblər.

Ulu Öndərin abidəsi önündə xatirə şəkilləri çəkdirilib.

Təntənəli mərasimin sonunda Azərbaycan Respublikası Prezidentinin köməkçisi Fuad Ələsgərov və general-leytenant Mədət Quliyev məzunların valideynləri ilə görüşüblər.

Valideynlər Prezident İlham Əliyevin diqqət və qayğısı nəticəsində Akademiyada yaradılmış hərtərəfli şəraitə görə Ali Baş Komandana minnətdarlıqlarını bildirib, övladlarının Vətənin təhlükəsizliyinin etibarlı müdafiəçiləri sırasında xidmətə başlamalarından qürur duyduqlarını qeyd ediblər.

AZƏRTAC

# "Sınıq Körpü" sərhəd-keçid məntəqəsindəki mövcud vəziyyət müzakirə edilib



**İyulun 24-də Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin sədri, gömrük xidməti general-leytenantı Səfər Mehdiyev, Dövlət Sərhəd Xidmətinin rəisi, general-polkovnik Elçin Quliyev, Dövlət Miqrasiya Xidmətinin rəisi Vüsal Hüseynov və Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin sədri Ülvi Mehdiyev Azərbaycanın Gürcüstanla dövlət sərhədində yerləşən "Sınıq Körpü" sərhəd-keçid məntəqəsində mövcud vəziyyətlə tanış olublar.**

Dövlət Gömrük Komitəsinin mətbuat xidmətindən AZƏRTAC-a bildirilib ki, qurum rəhbərləri sərhəd-keçid məntəqəsində mövcud vəziyyəti müzakirə edib, vətəndaşlar, o cümlədən sürücülərlə görüşərək sərhədkeçmə prosesindəki vəziyyətlə bağlı onların rəy və təkliflərini dinləyiblər.

Səfər çərçivəsində "Sınıq Körpü" sərhəd-keçid məntəqəsinin infrastrukturunun təkmilləşdirilməsi prosesində görüləcək işlər barədə müzakirələr aparılıb.

Qurum rəhbərləri xidmət səviyyəsinin yüksəldilməsi, sərhəd-keçid məntəqəsində baş verən sıxlığın gələcəkdə təkrarlanmaması üçün aparılacaq yenidənqurma işlərinin səmərəliliyinin təmin olunması, sərhədkeçmə prosesinin sürətli, şəffaf və maneəsiz şəkildə həyata keçirilməsinə dair tapşırıq və tövsiyələrini veriblər.

AZƏRTAC

# İqtisadiyyat Nazirliyinin Azərbaycan Xalq Cümhuriyyətinin 100 illiyi ilə bağlı keçirdiyi müsabiqənin nəticələri açıqlanıb





**İqtisadiyyat Nazirliyinin Azərbaycan Xalq Cümhuriyyətinin 100 illiyi ilə bağlı KİV nümayəndələri arasında "Azərbaycan Xalq Cümhuriyyəti dövrünün iqtisadiyyatı" mövzusunda keçirdiyi müsabiqənin nəticələri açıqlanıb.**

Nazirlik rəsmilərinin və KİV nümayəndələrinin iştirakı ilə keçirilmiş tədbir Azərbaycan Respublikasının dövlət himninin səslənməsi ilə başlayıb.

AZƏRTAC xəbər verir ki, iqtisadiyyat nazirinin müavini Niyazi Səfərov bu il yaranmasının 100-cü ildönümünü qeyd olunan və müsəlman Şərqində ilk parlament respublikası olan Azərbaycan Xalq Cümhuriyyətinin cəmi 23 ay yaşasa da, milli dövlətçilik tariximizdə silinməz izlər qoyduğunu, xalqın qəlbində azadlıq və istiqlal duyğularını gücləndirməklə respublikanın gələcək müstəqilliyi üçün zəmin yaratdığını deyib. Bildirib ki, Cümhuriyyət dövründə milli ordu quruculuğu, maarif və mədəniyyət, xaricdə təhsil sahələrində, eləcə də ölkənin sosial-iqtisadi inkişafı və xarici iqtisadi-ticarət əlaqələrinin yaradılması istiqamətində mühüm işlər görülüb. Belə ki, o dövrdə neft sənayesi ağır vəziyyətdən çıxarılıb, bir çox infrastruktur layihələri reallaşdırılıb, milli pul nişanları tədavülə buraxılıb, Xəzərdə dəniz gəmiçiliyi inkişaf etdirilib, Azərbaycan Dövlət Bankı yaradılıb və s. Qeyd olunub ki, Cümhuriyyət dövründə başlanılan, amma başa çatdırılmayan bir çox işlər XX əsrin 90-cı illərində müstəqilliyini bərpa etmiş Azərbaycan Respublikası tərəfindən həyata keçirilib. Əsası ümummilli lider Heydər Əliyev tərəfindən qoyulmuş ölkəmizin hərtərəfli inkişaf modeli Azərbaycan Xalq Cümhuriyyətinin ali arzularının həyata keçirilməsinə gözəl nümunədir. Bu gün Prezident İlham Əliyevin rəhbərliyi ilə müstəqil Azərbaycan Respublikası möhkəm və sarsılmaz təməl üzərində hərtərəfli inkişaf dövrünü yaşayır. Dayanıqlı və davamlı inkişaf edən Azərbaycan dünyada etibarlı tərəfdaş, beynəlxalq layihələrin təşəbbüskarı və fəal iştirakçısı, regionun siyasi, iqtisadi və mədəni mərkəzi, dünya miqyasında əhəmiyyətli tranzit mərkəzidir. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Cümhuriyyətin yaranmasının 100-cü ildönümünə həsr olunmuş tədbirdə qeyd etdiyi kimi, "Əgər Azərbaycan Xalq Cümhuriyyətinin qurucuları bugünkü Azərbaycanı görə bilsəydilər, onlar da ölkəmizlə fəxr edərdilər". Niyazi Səfərov 2018-ci ilin "Azərbaycan Xalq Cümhuriyyəti İli" elan edilməsini dövlət başçısının tariximinə göstərdiyi böyük diqqətin göstəricisi olduğunu vurğulayıb.

Azərbaycan Mətbuat Şurasının sədri, millət vəkili Əflatun Amaşov çıxış edərək, İqtisadiyyat Nazirliyi tərəfindən təşkil edilən müsabiqələrdə, eləcə də "Azərbaycan Xalq Cümhuriyyəti dövrünün iqtisadiyyatı" mövzusunda keçirilən müsabiqədə KİV-in fəal iştirak etdiyini bildirib, iştirakçıları təbrik edərək, müsabiqənin təşkilinə görə İqtisadiyyat Nazirliyinə təşəkkür edib.

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun icraçı direktoru Vüqar Səfərli dövlət başçısının ölkəmizdə medianın inkişafına xüsusi diqqət və qayğı göstərdiyini vurğulayaraq, KİV-nümayəndələri arasında belə müsabiqələrin təşkilinin önəmini qeyd edib.

İqtisadiyyat Nazirliyinin Aparat rəhbəri, Müsabiqə Komissiyasının sədri Ayaz Əliyev diqqətə çatdırıb ki, Azərbaycan Xalq Cümhuriyyəti liderlərinin böyük əksəriyyəti jurnalist olub. XX əsrin əvvəllərində fəaliyyət göstərən demokratikyönümlü mətbuat orqanları xalqı narahat edən problemlərə həssas yanaşıb, azadlıq, istiqlalçılıq, türkçülük ideyalarını təbliğ ediblər. Bildirilib ki, İqtisadiyyat Nazirliyi Cümhuriyyət dövrünün iqtisadiyyatına bir daha nəzərə salmaq məqsədilə Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu və Azərbaycan Mətbuat Şurası ilə birgə KİV nümayəndələri arasında müsabiqə elan edib. Müsabiqəyə ümumilikdə 85 məqalə təqdim edilib. Bütün materiallar İqtisadiyyat Nazirliyində yaradılmış komissiya tərəfindən qiymətləndirilib və qaliblər müəyyənləşdirilib.

Tədbirdə qaliblər elan olunub, onlara diplomlar və mükafatlar təqdim edilib. Qaliblər arasında AZƏRTAC-ın əməkdaşları da var.

Müsabiqənin digər iştirakçılarına da diplom və hədiyyələr verilib.

AZƏRTAC

## Dövlət Komitəsində məcburi köçkünlərlə növbəti görüş olub

**İyulun 24-də Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsində məcburi köçkünlərlə növbəti görüş olub.**

**Dövlət Komitəsindən AZƏRTAC-a bildirilib ki, görüşdə Komitə sədrinin müavinləri, şöbə və departament müdirləri iştirak ediblər.**

**Məcburi köçkünlərin müraciətləri əsasən mənzil-məişət şəraitinin yaxşılaşdırılması, kommunal xidmətlər və digər sosial problemlərlə bağlı olub.**

**Dövlət Komitəsinin sədri müraciətləri ayrı-ayrılıqda dinləyib. Qeydə alınmış müraciətlərlə əlaqədar müvafiq tədbirlərin görülməsi üçün tapşırıqlar verilib.**

AZƏRTAC

*MN:*

## Azərbaycanın hava məkanının, dövlət və hərbi obyektlərinin tam təhlükəsizliyi təmin edilir

**Son günlər Ermənistan mətbuatının təhlili göstərir ki, bu ölkənin hərbi-siyasi rəhbərliyinin və Dağlıq Qarabağdakı separatçı rejimin nümayəndələrinin birbirindən sərsəm bəyanatlar səsləndirmələri onların ciddi narahatlıq keçirmələrini, qorxu və təşviş içində olmalarının sübutudur.**

Bunu Azərbaycanın işğal olunmuş ərazilərindəki cinayətkar hərbi rejimin rəhbəri Levon Mnasakyanın "Lazım gələrsə, Mingəçevir SES-ə dərhal zərbə endiriləcəyi" barədə dedikləri ilə bağlı AZƏRTAC-ın sorğusuna cavab olaraq Müdafiə Nazirliyinin mətbuat xidmətindən bildiriblər.

"Azərbaycan Ordusu cəbhə xəttində vəziyyətin istənilən inkişafına hazırdır. Ordumuzun sərəncamında olan və dağıdıcı qüvvəyə malik ən müasir silah sistemləri düşmənin bütün vacib hərbi obyektlərini və strateji kommunikasiya xətlərini qısa müddətdə məhv etməyə qadirdir. L.Mnakasyanın budəfəki absurd bəyanatına gəlincə isə, Azərbaycan hava hücumundan müdafiə və raket əleyhinə müdafiə sistemləri ölkənin bütün hava məkanının, o cümlədən xüsusi əhəmiyyətli dövlət və hərbi obyektlərinin tam təhlükəsizliyini təmin edir. Düşmən tərəf belə məsuliyyətsiz bəyanatlar səsləndirməzdən əvvəl düşünməlidir ki, Ermənistanın ərazisində elə obyektlər var ki, onlara zərbə endirəcəyimiz təqdirdə həmin ərazilərdə yüz illərlə yaşayış mövcud olmayacaq", - deyə Müdafiə Nazirliyinin cavabında xüsusi vurğulanıb.

AZƏRTAC

*XİN:*

## Yunanıstanda tüğyan edən meşə yanğınlarında ölən və yaralananlar arasında Azərbaycan vətəndaşı yoxdur

**Azərbaycanın Yunanıstandakı səfirliyindən verilən məlumata görə, bu ölkədə tüğyan edən meşə yanğınlarında ölən və yaralananlar arasında Azərbaycan Respublikası vətəndaşlarının olması qeydə alınmayıb.**

Bu barədə AZƏRTAC-a açıqlamasında Xarici İşlər Nazirliyinin mətbuat xidmətinin rəhbəri Hikmət Hacıyev məlumat verib. Qeyd edilib ki, Yunanıstandakı səfirliyimiz davamlı əsasda bu ölkənin müvafiq qurumları ilə təmasdadır.

AZƏRTAC

## Azərbaycanlı diplomat Böyük Britaniyada xüsusi fəxri mükafatla təltif edilib

**Böyük Britaniyada akkreditə olunmuş diplomatların və ölkənin təhsil üzrə müvafiq qurumlarının iştirakı ilə hər il ənənəvi olaraq Kings Kollecdə təşkil edilən təhsil konfransı keçirilib.**

Xarici İşlər Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, konfrans çərçivəsində Londonda yerləşən iyirmi beş minlik diplomatik korpus arasında təhsil məsələləri üzrə məsul şəxslərin il ərzində fəaliyyəti təhlil olunur və yeni qurumlar, eləcə də təhsil mərkəzləri ilə əməkdaşlığı və effektiv fəaliyyəti ilə fərqlənən diplomatlar mükafatlandırılır.

Konfransda Azərbaycan Respublikasının Böyük Britaniyadakı səfirliyinin birinci katibi Hüseyn Hüseynov xüsusi fəxri mükafatla təltif edilib. Mükafatı təqdim edən Londondakı diplomatik korpus arasında nüfuzlu "Embassy" jurnalının redaktoru Elizabeth Stewart bu mükafatın Azərbaycanda təhsil sahəsində gedən islahatların və gənc nəslin, həmçinin diplomatların sözügedən islahatlarda oynadığı vacib rolunun layiqli qiymətləndirilməsinin nəticəsi olduğunu bildirib.

AZƏRTAC

# Qəzalı binalarda yaşayan 132 məcburi köçkün ailəsinin yeni mənzillərə köçürülməsi ilə bağlı püşkatma keçirilib





**İyulun 24-də Nərimanov Rayon İcra Hakimiyyətinin akt zalında bu rayondakı qəzalı, həyat üçün təhlükəli bina və tikililərdə müvəqqəti məskunlaşmış məcburi köçkünlərin Qaradağ rayonu Lökbatan qəsəbəsində yerləşən "Qobu Park" yaşayış kompleksində tam təmirli yeni mənzillərə köçürülməsi ilə bağlı püşkatma mərasimi keçirilib. Bu barədə AZƏRTAC-a Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsindən məlumat verilib.**

Bildirilib ki, püşkatmada Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsində yaradılmış komissiyanın üzvləri, Nərimanov Rayon İcra Hakimiyyətinin məsul şəxsləri, əraziləri işğal olunmuş rayonların icra hakimiyyəti başçılarının müavinləri və məcburi köçkün icmalarının nümayəndələri iştirak ediblər.

Tədbirdə ölkəmizdə məcburi köçkünlərin mənzil-məişət şəraitinin yaxşılaşdırılması məqsədilə həyata keçirilən tədbirlərin miqyasından və əhəmiyyətindən danışılıb. Qaradağ rayonu Lökbatan qəsəbəsində yerləşən "Qobu Park" yaşayış kompleksində məcburi köçkünlər üçün yaradılmış şəraitdən söhbət açılıb, həmçinin püşkatmanın məqsədi və şərtləri barədə məlumat verilib.

Qeyd olunub ki, ötən il Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyevanın sədrliyi ilə keçirilən müşavirədə Bakı və Sumqayıt şəhərlərində hələ də ağır vəziyyətdə, qəzalı və yararsız binalarda yaşayan məcburi köçkünlərin yeni mənzillərə köçürülməsi məsələsinə baxılıb və 4 min ailənin köçürülməsi ilə bağlı ciddi tapşırıqlar verilib. Bundan az sonra Heydər Əliyev Fondunun təşəbbüsü ilə Qaradağ rayonu Lökbatan qəsəbəsində "Qobu Park" yaşayış kompleksinin təməlqoyma mərasimi keçirilib və burada tikinti işləri qısa müddətdə başa çatdırılıb. Bakıda qəzalı, ən ağır vəziyyətdə olan binalarda, xüsusən, zirzəmilərdə müvəqqəti məskunlaşan köçkün ailələrinin bu il iyulun 9-dan həmin kompleksdə yerləşdirilməsinə başlanılıb.

Nərimanov rayonundakı "Mayakovski, 8/9, 10" və "Ziya Bünyadov, 30" ünvanlarında yataqxanalarda yaşayan və püşkatma mərasimində iştirak edən 132 məcburi köçkün ailəsinin də həmin qəsəbəyə köçürüləcəyi bildirilib.

Məcburi köçkün ailələri növbə ilə püşk çəkərək, "Qobu Park" yaşayış kompleksində, əvvəlcədən ayrılmış otaq sayı üzrə, hansı binada və neçənci mənzildə yaşayacaqlarını müəyyənləşdiriblər.

Püşkatma mərasimində iştirak edən məcburi köçkünlərdən Kamil Hacıyev (Füzuli rayonu), Mürşüd Səfərov (Zəngilan rayonu), Həqiqət Teymurova (Ağdam rayonu) və başqaları onlara göstərilən xüsusi dövlət qayğısını yüksək dəyərləndirərək, zəruri infrastrukturla təchiz edilmiş, tam təmirli yeni mənzillərə köçürüldükləri üçün hədsiz sevinc hissi keçirdiklərini bildirib, diqqət və qayğıya görə Prezident İlham Əliyevə və Birinci vitse-prezident Mehriban Əliyevaya dərin minnətdarlıqlarını bildiriblər.

AZƏRTAC

*Cari ilin birinci yarısının yekunları*

# İsmayıllı: Ahəngdarlıq öz axarındadır





**2018-ci ilin 6 ayının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunan geniş tərkibli şura iclasında rayon icra hakimiyyətinin başçısı Mirdamət Sadıqov məruzəsində bildirdi ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin müəyyən etdiyi sosial və iqtisadi siyasət, tövsiyə və tapşırıqlar 2018-ci ilin ikinci rübündə İsmayıllı rayonunda da uğurla həyata keçirilmişdir. Rayonun iqtisadi potensialını gücləndirmək, tikinti-abadlıq, quruculuq işlərini davam etdirmək, yeni layihələrin icrasını təmin etmək, işsizliyi azaltmaq və qarşıya qoyulmuş digər vəzifələrin icrası üçün tədbirlər davam etdirilmişdir.**

2018-ci ilin 6 ayı ərzində rayonda ümumi məhsul istehsalı faktiki qiymətlərlə 98 milyon 8 min manat olmuşdur ki, bu da əvvəlki ilin müvafiq dövrü ilə müqayisədə 22 milyon 542 min manat çoxdur. Əsas kapitala investisiya qoyuluşu 38 milyon 375 min manat olmuşdur ki, bu da əvvəlki illə müqayisədə 186 faiz çoxdur.

6 ayda rayonda 645 iş yeri açılmışdır ki, bunun da 529-u daimidir. Birinci yarımil ərzində 930 nəfər vətəndaş rayon məşğulluq mərkəzinə müraciət etmiş və onlardan 876 nəfəri işaxtaran kimi rəsmi qeydiyyata alınmışdır. Aktiv məşğulluq tədbirlərinin uğurla davam etdirilməsinin nəticəsində rayon məşğulluq mərkəzi tərəfindən 2018-ci ilin birinci yarımili ərzində 428 nəfər işlə təmin edilmişdir.

Rayonun ərazisində abadlıq, quruculuq davam etdirilmişdir. Belə ki, yeni layihələr əsasında yaşayış evləri və digər sosial obyektlər tikilmiş, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin müvafiq sərəncamları ilə Şamaxı rayonunun Dəmirçi kəndi ilə Lahıc qəsəbəsini birləşdirən Dəmirçi-Lahıc yolunun və Kürdmaşı-Kəlbənd-Girk avtomobil yolunun tikintisinə başlanılmış, Lahıc qəsəbə tam orta məktəbinin tikintisi davam etdirilmiş, İsmayıllı şəhər ərazisində küçələrə asfalt örtük vurulmuş, ictimai yaşayış binalarında təmir işləri görülmüşdür. Bu ilin 6 ayı ərzində rayon ərazisində 39 yaşayış evinin, 5 sahibkarlıq obyektinin tikintisinə rəsmi icazə verilmişdir.

İsmayıllı şəhərinin Heydər Əliyev prospektində beşmərtəbəli 4 ulduzlu otelin, M.F.Axundov küçəsində yeddimərtəbəli iki yaşayış binasının tikintisi davam etdirilmiş, Tircan kəndi yaxınlığında Bədo istirahət, müalicə və sanatoriya kompleksində yeni restoran və tibb korpusunun tikintisinə başlanılmışdır. İsmayıllı 110/35/10 kilovoltluq yarımstansiyanın tikintisi başa çatdırılmışdır. Rayonun 108 yaşayış məntəqəsindən rayon mərkəzi də daxil olmaqla 38-i qazlaşdırılmışdır.

Bu ilin məhsulu üçün ötən ilin payızında 21650,5 hektar buğda, 6930 hektar arpa, 161 hektar çovdar olmaqla 28741,5 hektar sahədə dən üçün səpin aparılmışdır. İndiyədək 15 min hektardan artıq sahədə taxıl biçilmiş 50 min tondan artıq məhsul istehsal edilmişdir. Bugünkü vəziyyətə buğdanın orta məhsuldarlığı 34.9 sentner təşkil edir. Biçin davam edir.

Cari ildə rayona 130 qutu barama gətirilmiş 28 İƏD üzrə 53 kümçüyə paylanılmış və 250 nəfər bu sahədə işlə təmin olunmuşdur. Tədarük məntəqəsinə 3899,9 kq barama təhvil verilmişdir. Rayonun Mollaisaqlı, Qalınçaq, Kürdmaşı, Qurbanəfəndi, Qalagah, Soltankənd kəndlərində barama istehsalı proqnozdan artıq olmuşdur.

Rayonun Topçu kəndində 4, Qalınçaq kəndində 4, Təzəkənd, Qurbanəfəndi, Diyallı, Qalacıq, Talıstan, Sumağallı kəndlərinin və İsmayıllı şəhərinin hər birində 2 hektar olmaqla 9 inzibati ərazi dairəsi üzrə 22 hektar sahədə tütün əkilmiş, 56 nəfər işlə təmin olunmuşdur. Tütünçülər məhsul istehsalını 30 tona çatdırmağı nəzərdə tutmuşlar. Rayonun Keyvəndi kəndindəki, "Azza-aqro" şirkəti 15 may 2018-ci il tarixində "Aqrolizinq" ASC-nin xətti ilə Almaniyadan 99 baş Holştin-friz cinsli düyə gətirmişdir. Sentyabr-oktyabr aylarında isə daha 200 baş qaramalın gətirilməsi nəzərdə tutulmuşdur. Rayonun Kürdmaşı kəndində "Buta qrup" şirkəti tərəfindən aqroparkın tikintisi davam etdirilir. Cari ilin məhsulu üçün burada 75 hektar sahədə buğda, 105 hektar sahədə kartof, 70 hektar sahədə qarğıdalı əkilmişdir. Əkilən sahələrin suvarılması məqsədilə 100 hektar sahədə pivot suvarma sistemi quraşdırılmışdır.

2018-ci ilin yazında Talıstan, Cülyan və Diyallı kəndlərində 200 hektar sahədə intensiv becərmə texnologiyası və sənaye üsulu ilə yüksəkreproduksiyalı toxumla kartof əkini aparılmışdır. Rayon ərazisində 78 təsərrüfatda 8423 kvadratmetr sahədə göyərti, pomidor, xiyar bitkiləri əkilmişdir. . 2018-ci ilin yaz mövsümündə Qubaxəlilli kəndi ərazisində AS-PİLAND MMC tərəfindən 10 hektar sahədə badam və 30 hektar sahədə isə qoz bağı salınmışdır. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin tövsiyə və tapşırıqlarına uyğun rayonda 2018-ci ilin yazında 500 hektar sahədə yeni fındıq bağları salınmışdır. 2686 ton diri çəkidə ət, 17576 ton süd, 8450 min ədəd yumurta istehsal olunmuşdur.

Rayonda radikal dini qrupların fəaliyyətinə qarşı güclü mübarizə tədbirləri həyata keçirilir. Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi tərəfindən ayrılmış maliyyə vəsaiti hesabına bir sıra layihələr icra olunmuşdur. Dini icmalar, imamlar, dini ayinlərin icraçıları ilə vaxtaşırı görüşlər keçirilmiş, multikulturalizm və tolerantlıq ənənələrinin təbliği ilə bağlı tədbirlər icra olunmuşdur. Rayonda dini durumun sabitliyi təmin edilmişdir.

2018-ci ilin 6 ayında rayon icra hakimiyyətinə cəmi 770 ədəd vətəndaş müraciəti daxil olmuşdur. Vətəndaşlar daha çox sosial müdafiə, mənzil, torpaq, enerji daşıyıcıları və su təchizatı, şəhər, rayon icra nümayəndəlikləri və bələdiyyələrin fəaliyyəti, şəhərsalma və tikinti, nəqliyyat, qəbul, səhiyyə, elm və təhsil, təbii fəlakət hadisələri və fövqəladə hallar, təhlükəsizlik və hüquq-mühafizə orqanlarının fəaliyyəti, kənd təsərrüfatı məsələləri ilə bağlı müraciət etmişlər.

Rayon icra hakimiyyətinə daxil olan bütün müraciətlər diqqətlə araşdırılmış, şikayətlərin yaranma səbəbləri təhlil edilmiş, onların həlli istiqamətində tədbirlər görülmüşdür.

2018-ci ildə qarşıda duran vəzifələr daha böyük, daha əzəmətlidir. Təsadüfi deyil ki, cənab Prezident 2018-ci ilin uğurlu və sürətli inkişaf ili olacağını qeyd etmişdir. Rayonda aqrar sahənin və sənayenin inkişaf etdirilməsi, sosial-infrastruktur layihələrinin icrası, işsizliyin aradan qaldırılması üçün yeni iş yerlərinin yaradılması, sahibkarlığın inkişafının dəstəklənməsi, rayonun ölkənin əsas turizm mərkəzlərindən birinə çevrilməsi qarşıda duran əsas hədəflərdəndir.

**Rasim AMANOV,**
**"Respublika".**

# GORANBOY: İNKİŞAF TEMPİ DAVAMLIDIR



**Goranboy Rayon İcra Hakimiyyətində 2018-ci ilin yarısının yekunları və qarşıda duran vəzifələrə həsr olunmuş iclas keçirilmişdir. Goranboy RİH başçısı Nizaməddin Quliyev rayonda aparılan abadlıq-quruculuq işlərindən, yeni layihələrin icrasından söhbət açaraq qeyd etdi ki, birinci yarımilin yekunları Goranboy rayonu üçün də uğurlu olmuşdur. Məlum olduğu kimi, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev iyunun 5-də Goranboy rayonuna səfər etmişdir. Səfər zamanı cənab Prezident Bayraq Muzeyinin, 14 km uzunluğunda Dəliməmmədli-Quşçular-Fəxralı-Qurbanzadə-Alpout və uzunluğu 20 km olan Dəliməmmədli-Muzdurlar-Qırıqlı avtomobil yollarının, "Region Aqropark"ın, hər biri 40 meqavolt amper olan iki transformatorun quraşdırıldığı 110/35/10 kilovoltluq "Dəliməmmədli yarımstansiyası"nın və Şəmkir-Samux-Goranboy magistral suvarma kanalının ikinci növbəsinin İpək Yolu ilə kəsişmə qurğusunun və ondan sonrakı 4,95 kilometrlik hissəsinin açılışında iştirak etmişdir. Rayonda istifadəyə verilən yollar 20 yaşayış məntəqəsini birləşdirir və 20 min nəfər əhaliyə xidmət edəcəkdir. Bu yolların inşası rayon mərkəzi ilə əlaqələri yaxşılaşdırmaqla bölgədə iqtisadiyyatın və kənd təsərrüfatının inkişafında mühüm rol oynayacaqdır.**

Qeyd etmək yerinə düşər ki, cənab Prezidentin Goranboya bu səfərindən sonra Goranboy şəhərində qəzalı vəziyyətdə olan çoxmənzilli binaların sakinlərinin mənzil-məişət şəraitinin yaxşılaşdırılması məqsədi ilə 40 mənzilli yaşayış binasının tikintisi ilə bağlı cənab Prezidentin verdiyi sərəncam rayona göstərilən yüksək diqqət və qayğının növbəti təzahürüdür.

Yarım ildə rayonda tikinti, abadlıq və quruculuq işləri davam etdirilmişdir. Sahəsi 750 kvadratmetr olan Bayraq muzeyinin tikintisi başa çatmış, 72 metr hündürlüyündə Dövlət Bayrağı ucaldılmışdır. Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin inzibati binasının tikintisi başa çatmaq üzrədir.

Büdcədən ayrılmış vəsait hesabına rayon mərkəzi xəstəxanası üçün yeni binanın tikintisi aparılır, yaxın vaxtlarda istifadəyə veriləcəkdir. Cənab Prezidentin tapşırığı ilə rayonda Olimpiya İdman Kompleksinin tikintisi üçün 3 milyon manat vəsait ayrılmış, tikintiyə başlanılmışdır. Növbəti ildə Kompleksin istifadəyə verilməsi nəzərdə tutulmuşdur. Xalça istehsalı emalatxanasının, Ailə və Uşaqlara Dəstək Mərkəzinin tikintisinə başlanmışdır.

Rayonun ümumtəhsil məktəblərinin maddi-texniki bazasının yaxşılaşdırılması istiqamətində tədbirlər davam etdirilmişdir. Xoylu kənd tam orta məktəbinin əlavə tədris korpusunda əsaslı təmir işləri aparılmışdır. Səfikürd və Balakürd kəndlərində mini stadionlar qurulmuşdur. Ümumilikdə isə, son 7 ildə 24 məktəb, 3 əlavə tədris korpusu inşa edilmiş, 11 məktəb isə əsaslı təmir edilmişdir. Təbii ki, bütün bunlar tədrisin keyfiyyətinə müsbət təsir göstərmişdir. Son illər ali məktəblərə qəbulun nəticələrindəki müsbət dinamika da bunu deməyə əsas verir. Məktəbəqədər təhsilin ilkin pilləsi olan uşaq bağçalarının maddi bazasının yaxşılaşdırılması diqqət mərkəzində saxlanılmışdır. Kələk kəndində yeni uşaq bağçası üçün bina inşa edilmiş, yaxın vaxtlarda açılacaqdır. Ağamalıoğlu kənd uşaq bağçasında əsaslı təmir işləri aparılır.

Ötən il aqrar bölmədə ciddi uğurlar əldə edilmişdir. Pambıqçılığın, tütünçülüyün, baramaçılığın və digər sahələrin inkişafı ilə bağlı qəbul edilmiş Dövlət proqramları aqrar sahənin inkişafına ciddi təkan vermişdir. Cari təsərrüfat ilində 5 min hektarda pambıq, 8 hektarda tütün səpilmişdir. Pambıq və tütün sahələrində aqrotexniki tədbirlər vaxtında yerinə yetirilməlidir ki, məhsul bol olsun. Bu il 9,8 ton barama istehsal edilərək tapşırıq əsasən yerinə yetirilmişdir. Cari ilin məhsulu üçün 18 min 774 hektarda taxıl, o cümlədən 7 min 6 hektarda buğda, 12 min 148 hektarda arpa səpilmişdir. Artıq 17 min 67 hektar sahə biçilmiş, məhsuldarlıq 30,06 sentner olmuşdur.

Goranboy və Samux rayonlarının inzibati ərazisində yerləşən "Boz dağ" massivində yaradılmış "Region Aqroparkı" fəaliyyətə başlamışdır. Bura Şəmkir maşın kanalından 12,1 kilometr su kəməri çəkilmiş, su anbarları inşa edilmiş, müasir suvarma sistemləri quraşdırılmışdır. 14 kilometr yüksəkgərginlikli elektrik xətti çəkilmiş, transformator quraşdırılmışdır. 12 kilometr qaz xəttinin çəkilməsi yekunlaşmaq üzrədir. İnzibati və yardımçı binaların tikintisi aparılır. Meyvə bağları salınmış, pambıq, buğda, arpa əkilmişdir.

Ötən il Azərbaycan Meliorasiya və Su Təsərrüfatı Açıq Səhmdar Cəmiyyətinin sədri Əhməd Əhmədzadənin köməkliyi ilə Şəmkir maşın kanalı vasitəsi ilə Dəliməmmədli şəhəri ərazisinə suvarma suyu verildi. Kanalın altında yerləşən 8 kənddə su təminatı əsasən ödənildi. Bu il isə kanalın Nadirkənd kəndinədək 7 kilometrlik hissəsi istifadəyə veriləcəkdir.

Yaşayış məntəqələrinin qazlaşdırılması davam etdirilmişdir. Yəhərçi, Qazaxlar və Goranlı kəndlərində son tamamlama işləri aparılır. Yaxın günlərdə bu kəndlərə təbii qaz veriləcəkdir. Hazırda rayon üzrə qazlaşma 95 faiz təşkil edir.

Çıxışının sonunda Goranboy Rayon İcra Hakimiyyətinin başçısı Nizaməddin Quliyev tam əminliklə bildirdi ki, 2018-ci ilin ikinci yarısında da qarşıya qoyulmuş vəzifələrin icrası layiqincə yerinə yetiriləcəkdir.

Çıxış edənlər Goranboyda aparılan yüksək abadlıq-quruculuq işlərindən, regoinların sosial-iqtisadi inkişafı Dövlət proqramlarından irəli gələn vəzifələrin uğurla yerinə yetirilməsindən, infrastruktur layihələrin həyata keçirilməsindən, kənd təsərrüfatı və heyvandarlıq məhsullarının istehsalından, vətəndaşların sosial-məişət və həyat tərzinin yaxşılaşmasından və sair məsələlərdən danışdılar.

**Zabit XƏLİLOV,**
**"Respublika".**

# Biləsuvarda ilin birinci yarısına yekun vuruldu





**Biləsuvar Rayon İcra Hakimiyyətində 2018-ci ilin birinci yarısının sosial-iqtisadi inkişafının yekunları və qarşıda duran vəzifələrə həsr olunmuş hesabat yığıncağı keçirildi. Hesabat iclasında Biləsuvar Rayon İcra Hakimiyyətinin başçısı Mahir Quliyev bildirdi ki, bu dövrdə rayonumuzda ümumi məhsul buraxılışının həcmi 131.8 milyon manat olmuşdur ki, bu da ötən ilin müvafiq dövrü ilə müqayisədə çoxdur. Bu ilin birinci yarısında əsas kapitala yönələn investisiyalar 11.6 milyon manat, pərakəndə əmtəə dövriyyəsi isə 135.5 milyon manat təşkil etmişdir. Adambaşına düşən ümumi məhsul buraxılışının həcmi 1283 manat, orta aylıq əmək haqqı isə 295 manat olmuşdur. 2018-ci ilin altı ayında rayon əhalisinin gəlirləri 154.6 milyon manat, adambaşına düşən gəlirlərin həcmi isə 1505.3 manata çatmışdır. 2018-ci ilin birinci yarısında rayon üzrə 310 yeni iş yeri yaradılmışdır.**

2017-ci ildə 11351.8 hektar sahədə pambıq əkini aparılmış və 24762.0 ton məhsul toplanmışdır.

2018-ci ildə də rayonumuzda pambıq əkinlərini daha da genişləndirməklə 12 min hektarda pambıq əkilmişdir ki, bunun da 3440.8 hektarı "MKT İK" MMC, 3682.5 hektarı "Azərpambıq" MMC, 1310.2 hektarı rayon Kənd Təsərrüfatı İdarəsinin nəzdində yaradılmış MMC və 3566.5 hektarı isə fərdi mülkiyyətçilər tərəfindən həyata keçirilmişdir.

2018-ci ilin məhsulu üçün 2017-ci ilin payızında 15453 hektarı buğda, 14043 hektarı isə arpa olmaqla ümumilikdə 29496 hektar payızlıq dənli bitkilər əkilmişdir. Sahələrdən 82381 ton məhsul əldə edilmişdir ki, bunun da 45353 tonunu buğda, 37028 tonunu arpa bitkisi təşkil etmişdir. Hər hektardan məhsuldarlıq 27.9 sentner olmuşdur ki, bu da ötən ilki məhsuldarlıqdan çoxdur.

Bundan əlavə, hesabat dövründə yazlıq əkinlər üzrə 1898 hektar tərəvəz, 700 hektar çəltik, 686 hektar şəkər çuğunduru, 527 hektar günəbaxan, 472.2 hektar qarğıdalı, 304 hektar kartof, 113.5 hektar bostan bitkiləri əkilmişdir.

2018-ci ilin birinci yarısında heyvandarlığın inkişafı sahəsində də irəliləyişlər əldə olunmuşdur. Belə ki, iribuynuzlu mal-qaranın baş sayı 41.8 min başa, xırdabuynuzlu mal-qaranın baş sayı 140 min başa çatdırılmışdır. Bu dövrdə ət istehsalı 3517 ton, süd istehsalı 13601 ton olmuşdur.

Rayonda aparılan tikinti, abadlıq və quruculuq işləri barədə məlumat verən rayon icra hakimiyyətinin başçısı bildirdi ki, şəhərin H.Əliyev küçəsində inşa olunan Bayraq Muzeyi və Gənclər Mərkəzinin tikintisi başa çatdırılmışdır. Xırmandalı kəndində inşa olunan 40 yerlik uşaq bağçasının tikintisində son tamamlama işləri aparılır. Əsgərabad kəndində 4 hektar sahədə inşa olunan və gücü 4 min ton olan pambıq tədarükü məntəqəsinin tikintisi başa çatdırılmış, pambıq emalı müəssisəsinin tikintisi üçün əlavə 6,0 hektar torpaq sahəsi ayrılmışdır.

"Biləsuvar şəhərinin su təchizatı və kanalizasiya sisteminin yenidən qurulması layihəsinin davam etdirilməsi ilə bağlı əlavə tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 30 avqust 2017-ci il tarixli Sərəncamı ilə "Azərsu" Açıq Səhmdar Cəmiyyətinə 3,5 milyon manat vəsait ayrılmışdır. Hazırda şəhər ərazisində kanalizasiya sisteminin tikintisində son tamamlama işləri aparılır.

20,5 min nəfər əhalinin yaşadığı 4 yaşayış məntəqəsini birləşdirən uzunluğu 15,4 km olan Zəhmətabad-Bəydili-Xırmandalı-Əliabad avtomobil yolunun tikintisi başa çatdırılmış, Zəhmətabad kəndi ilə Bağbanlar kəndini birləşdirən yolda əlavə olaraq 850 metr yol asfaltlaşdırılmışdır.

Ölkə Prezidenti cənab İlham Əliyevin 27 mart 2018-ci il tarixli Sərəncamı ilə bu il rayonun Muğan kəndində 100 yerlik ümumi orta məktəb üçün modul tipli yeni məktəb binası inşa olunacaqdır.

Cari ilin mart ayında "Ölkəmizi tanıyaq" tur aksiyası çərçivəsində rayonun 40 nəfər şagirddən ibarət nümayəndə heyətinin respublikamızın şimal rayonlarına səfər etmələri onlarda böyük təəssürat oyatmışdır.

Bu il rayonumuzun ümumtəhsil məktəblərini bitirmiş məzunlardan birinci turun nəticələrinə görə ali məktəblərə qəbul imtahanlarında 25 nəfər 600-dən, 59 nəfər isə 500-dən yuxarı bal toplamışdır.

Azərbaycanın Milli Qəhrəmanı Mübariz İbrahimovun adını daşıyan məktəb-lisey kompleksinin builki bütün məzunları yüksək balla tələbə adını qazanmağa nail olmuşlar.

Biləsuvar Rayon İcra Hakimiyyətinin başçısı Mahir Quliyev çıxışının sonunda bildirmişdir ki, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev ilin birinci yarısının yekunlarına həsr olunmuş iclasındakı proqram xarakterli çıxışı qarşımıza çox böyük məsuliyyət qoyur. Rayonumuzda da abadlıq, quruculuq işlərinin davam etdirilməsi, sosial infrastrukturun yenilənməsi, kənd təsərrüfatının, xüsusilə pambıqçılığın inkişaf etdirilməsi, Aqroparkların salınması, əhalinin məşğulluğunun təmin edilməsi və yeni iş yerlərinin yaradılması əsas məsələlərimiz olacaqdır.

Hesabat iclasında Biləsuvar şəhər icra nümayəndəsi Qabil Xammədov, rayon Suvarma Sistemləri İdarəsinin baş mühəndisi Tehrac Eyvazov, rayon Məşğulluq Mərkəzinin direktoru Əvəz Əliyev çıxış edərək fəaliyyət göstərdikləri sahələr üzrə görülmüş işlər barədə ətraflı məlumat verdilər və qarşıda duran vəzifələr müzakirə olundu.

**Ərəstun ABDULOV,**
**"Respublika".**

# Ağdam: Kənd təsərrüfatı məhsullarının istehsalı artıb



**Bu gün cəbhə bölgəsində, düşmən silahlarının susmadığı barıt qoxulu torpaqda insanlar əkin-biçinlə məşğul olur, qurub yaradır, ötən müharibənin vurduğu ziyanı aradan qaldırır və gələcəyə çox nikbin baxırlar. Ağdamlıların yekdil fikri belədir ki, ötən illər ərzində onlara göstərilən dövlət qayğısına əməli işlərlə cavab versinlər. Məhz buna görə də onlar gecəni gündüzə qataraq çalışırlar. Dövlətimizin başçısı cənab İlham Əliyevin diqqət və qayğısı sayəsində rayon ərazisində yeni qəsəbələr salınır, müharibədən zərər görmüş binalar bərpa olunur.**

Vaxtilə rayonun ən ucqar kəndi hesab olunan və bu gün qəsəbə statusu daşıyan Quzanlıya indi hamı şəhər gözündə baxır. Qədim tarixi olan Xındırıstan kəndi, eləcə də Çəmənli, Qaradağlı, Zəngişalı, Üçoğlan və digər kəndlərdə də əhalinin həyat şəraiti daha da yaxşılaşır, yeni evlər tikilir, gənc ailələrin sayı durmadan artır. Yaralı torpaq öz övladlarının zəhməti, təsübkeşliyi, doğma yurda məhəbbəti sayəsində, sözün əsl mənasında öz tarixinin yeni səhifələrini yazır.

Bütün bunlar haqqında Quzanlı qəsəbəsində keçirilən rayon icra hakimiyyəti başçısı yanında şuranın 2018-cı ilin altı ayının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunmuş hesabat yığıncağında daha ətraflı və daha ürəkaçan məlumatlar səslənib. **Rayon icra hakimiyyəti başçısı əvəzi Allahverən Əliyevin** hesabat məruzəsində bildirilib ki, cari yarımillikdə rayon üzrə ümumi məhsul istehsalının həcmi 57 milyon 786 min manat olub. Bu, ötən ilin eyni dövrü ilə müqayisədə 2 milyon 616,7 min manat və ya 4,7 faiz çoxdur. Bu dövrdə 6 milyon 205 min manatlıq sənaye, 39 milyon 660 manatlıq kənd təsərrüfatı məhsulları istehsal edilib, 4 milyon 210 manatlıq tikinti-quraşdırma işləri aparılıb.

Quzanlı-İmamqulubəyli-Orta Qərvənd-Xındırıstan və Əfətli-Hacıturalı-Həsənxanlı avtomobil yollarının tikintisi başa çatdırılaraq sakinlərin istifadəsinə verilib. Quzanlı qəsəbəsində Muğam Mərkəzinin tikintisində son tamamlanma işləri aparılır, 360 şagird yerlik orta məktəbin inşası davam etdirilir.

Aqrar sahədə görülən işlərdən danışılarkən diqqətə çatdırılıb ki, ilin birinci yarısında 351 hektar sahədən 5408 ton kartof, 4567,2 hektardan 18 min 475 ton tərəvəz istehsal olunub, 3100 hektarda pambıq, 1569,5 hektarda təzə yonca, 537,1 hektarda şəkər çuğunduru əkilib. 2181 hektar arpa, 14 min 055 hektar buğda sahəsindən 52 min tondan artıq taxıl əldə edilib. Bundan başqa, rayon kümçüləri tərəfindən 17 ton 83 kiloqram barama tədarük olunub. Rayonda heyvandarlığın, xüsusilə cins mal-qaranın inkişaf etdirilməsi məqsədilə 1251 baş heyvan süni yolla mayalandırılıb, 736 baş sağlam bala alınıb.

Yığıncaqda əhalinin təbii qaz, elektrik enerjisi, rabitə və digər xidmətlərlə təminatının yaxşılaşdırılması istiqamətində görülən işlərdən, təhsil, mədəniyyət, səhiyyə və aqrar sahədə əldə olunan uğurlardan da ətraflı bəhs edilib, mövcud problemlərə toxunulub, onların həlli və qarşıda duran vəzifələrdən danışılıb.

**Salman ALIOĞLU,**
**"Respublika".**

# Xalq-iqtidar birliyi Azərbaycanda sabitliyin əsas şərtidir

## *Dövlət başçısı bildirib ki, xalq qanlı cinayətləri birmənalı olaraq pislədi və bunu törədənlərə öz nifrətini ifadə etdi*

**Azərbaycanın siyasi-iqtisadi uğurlarının təməlində möhkəm, sarsılmaz xalq-iqtidar birliyi durur. Ölkəmizdəki mövcud dini etiqad, söz, ifadə azadlığı müxtəlif milli və dini mənsubiyyətli vətəndaşlarımızın bütün insani hüquq və azadlıqlarını təmin edir. Azərbaycan dünyada İslam mədəniyyətinin təbliği sahəsində çox əhəmiyyətli tədbirlər həyata keçirir, həm də İslam ölkələri arasındakı həmrəylik meyillərinə güclü töhfələr verir. "İslam Həmrəyliyi ili" ərzində keçirilən bir çox tədbirlər göstərir ki, Azərbaycan dövləti milli dəyərlər üzərində qurulubdur, ölkəmizdə dini siyasət düşünülmüş şəkildə aparılır və Azərbaycan xalqının maraqlarına cavab verir.**

Azərbaycan xalqının və dövlətinin öz milli və dini dəyərlərini daim qoruduğunu Prezident yanında respublikanın hüquq-mühafizə orqanları rəhbərlərinin iştirakı ilə keçirilən iclasda vurğulayan dövlət başçısı cənab İlham Əliyev bildirib ki, dini şüarlar altında Gəncə şəhərində törədilən terror aktları dövlətçiliyimizə qarşı yönəldilmiş cinayətlərdir və bu cinayətləri törədən terrorçu qruplaşma Azərbaycanda sabitliyi pozmaq istəyir: "Bu, özlüyündə İslam dininə qarşı ən böyük cinayətdir. Çünki İslam sülh, mərhəmət dinidir. Azərbaycan dövləti və Azərbaycan öz milli, dini dəyərlərini daim qoruyur. Azərbaycan İslam mədəniyyətini dünyada ən çox təbliğ edən ölkələrdən biridir.

Bildiyiniz kimi, ötən il Azərbaycanda "İslam Həmrəyliyi ili" elan olunmuşdur, İslam Həmrəyliyi Oyunları keçirilmişdir. Bu il Naxçıvan İslam Mədəniyyətinin paytaxtı şəhəridir. Bir neçə il əvvəl Bakı şəhəri bu şərəfli ada layiq görülmüşdür. Müsəlman ölkələrini birləşdirən İslam Əməkdaşlığı Təşkilatı Azərbaycanda dini sahədə görülən işlərə ən yüksək qiymət verir. Azərbaycan dövlətinin xətti və dəstəyi ilə dövlət vəsaiti hesabına bizim tarixi-dini abidələrimiz tam bərpa olunub yenidən qurulub, yeni məscidlər tikilib. Yəni, bir daha demək istəyirəm ki, bu cinayəti dinimizə bağlamaq istəyənlər dinimizə qarşı ən böyük cinayət törədiblər. Bu cinayətkarlar müsəlman deyillər və bu cinayətlər cavabsız qalmır. Cinayətkarlar və onların arxasında dayananlar heç vaxt öz məkrli arzularına çata bilməyəcəklər. Azərbaycan dövləti və Azərbaycan xalqı buna heç vaxt imkan verməyəcək. Bütün Azərbaycan xalqı bu qanlı cinayətləri birmənalı olaraq pislədi və bu cinayətləri törədənlərə qarşı öz nifrətini ifadə etdi".

Gəncədə baş verən xoşagəlməz hadisələrin təhlilləri və araşdırmalar göstərir ki, bu aksiyalar sosial ədalət naminə deyil, Azərbaycanda qarşıdurma yaratmaq istəyən qüvvələrin çirkin sifarişi ilə həyata keçirilib. Reket nəşrlərdə, sosial şəbəkələrdə ideoloji təxribat məqsədilə Gəncə Şəhər İcra Hakimiyyətinin başçısı Elmar Vəliyevin rəftarı barədə yayılan məlumatların həqiqəti əks etdirmədiyini şəhər ictimaiyyətinin böyük əksəriyyətinin fikirləri də təsdiqləyir. Və əslində son 7 ildə Gəncədə aparılan infrastruktur yenilikləri, eləcə də yeni salınan geniş park və istirahət bağları, yaradılan zəngin muzeylər, siyasi, elmi-mədəni, kütləvi tədbirlər üçün qurulan mərkəzlər bu qədim şəhəri yalnız ölkəmizdə deyil, həm də Cənubi Qafqazda və MDB-də məşhur etdi. Azərbaycanın tarixi-mədəni irsinə, dini dəyərlərinə və zəngin mədəniyyətinə böyük bir sevginin örnəkləri kimi yaradılan Qala Qapıları Arxeologiya və Etnoqrafiya Muzeyi, Nizami Gəncəvi Muzeyi, Məhsəti Gəncəvi Mərkəzi, "İmamzadə" Dini Ziyarətgah Kompleksi, ərazisinin böyüklüyünə görə dünyanın 5 parkından biri olan Heydər Əliyev Park Kompleksi, əzəmətli Heydər Əliyev Mərkəzi, Zəfər tağı, Müasir İncəsənət Mərkəzi, Mirzə Şəfi Vazeh Muzeyi, "Xəmsə" Parkı, Gənclər Evi, Gəncəçay Park-Bulvar Kompleksi, "Gəncə-2016 Avropa Gənclər Paytaxtı" parkı, Bayraq Meydanı, Gəncə Dövlət Filarmoniyasının möhtəşəm binası, Əziz Əliyev parkı, "Xəmsə" parkı, şəhərin girişində yaradılmış "Xəmsə" daş kitablar abidəsi, başdan-başa yenilənmiş Cavadxan küçəsi, Hacıkənd qəsəbəsində açıq havada salınmış "Nizami Gəncəvi: Sələflər və Xələflər" parkı dahi şair Nizami yurdunda həyata keçirilən işlərə əyani sübutdur. Gəncə şəhərində qazanılan bu uğurlar dövlət başçısı cənab İlham Əliyevin böyük diqqət və qayğısı ilə çağdaş dövrün çağırışlarına uyğun həyata keçirilən islahatların müsbət nəticələridir. Bütün bunlar şəhər əhalisinin rifahının daha da yaxşılaşmasına xidmət edir.

Abadlıq-quruculuq işlərinin son illərdə geniş vüsət aldığı Gəncədə bu hadisələrin baş verməsi təsadüfi deyil, bu, Azərbaycanın müstəqilliyini həzm edə bilməyən, ölkəmizin bugünkü sürətli inkişafını gözü götürməyən xarici qüvvələrin ölkəmizdə xaos yaratmaq cəhdi idi. Bu, dövlətçiliyimizə, müstəqilliyimizə qarşı separatçıların, radikal dindarların, yalnız pula və məişət komfortuna işləyən "iaşə müxalifəti"nin sinxronlaşdırılmış ideoloji təxribatı idi.

Bu radikal qrupların öncədən sosial şəbəkələrdə şəhərin mərkəzinə toplaşmaq üçün çağırışlar etməsi, daha bir işarə ilə hamısının baş meydana yığışıb müxtəlif qızışdırıcı dini şüarlar səsləndirməsi bir daha onu təsdiqləyir ki, həmin insanlar dünyanın hansısa mərkəzləri tərəfindən idarə olunan və istiqamətləndirilən dini təmayüllü pozucu qüvvələrdir və bu aksiyalarda əsas məqsəd ölkəmizdəki dincliyi və əmin-amanlığı pozmağa yönəlib. Baş verən hadisələrin dinlə əlaqəli olduğunu birmənalı olaraq rədd edən, bunu ölkəmizə düşmən olan bəzi qüvvələrin xaricdən siyasi məqsədlərlə yönləndirildiyini və cəmiyyətdə nifaq salmaq cəhdi kimi qiymətləndirən Qafqaz Müsəlmanları İdarəsi bəyan edib ki, ölkəmizdə mövcud sabitliyin pozulması, qarşıdurma yaratmaq məqsədilə aksiyalara cəlb etmək üçün dini şüarlarla çağırışlar edilməsini dövlətçiliyimizə, milli-mənəvi dəyərlərimizə qarşı təxribat kimi dəyərləndirir, din pərdəsi altında fəaliyyət göstərən radikal qrupların cəmiyyətdə iğtişaşlara təhrik etməsini dövlətə qarşı terror, islami dəyərlərə zidd hesab edirik. Terrorçunun isə dini olmur: "Ümidvarıq ki, insan həyatına ali qiymət verən İslam dininin humanist dəyərlərinə zidd olaraq həyata keçirilən qətl və suiqəsd hallarının kimliyindən asılı olmayaraq törədənlərin, məscidlərimizi dağıdan erməni terrorçularının dəyirmanına su tökənlərin dövlətçiliyimizə təhlükə yaratmaq məqsədi güdən əməllərinə ciddi hüquqi qiymət veriləcəkdir". Bəyanat göstərir ki, Azərbaycan dindarları daim dövlətimizə sadiqdirlər və din xadimləri, dindarlar hüquqi, demokratik dövlətin - Azərbaycan Respublikasının yaradılmasında olaraq, qanunun aliliyini qəbul edir, ictimai-siyasi sabitliyi, davamlı sosial-iqtisadi tərəqqini və bunu təmin edən siyasəti, milli-mənəvi dəyərlərimizə yüksək diqqət və qayğı göstərən cənab İlham Əliyevin strategiyasını, dövlətin bu kimi təxribatların qarşısının qətiyyətlə alınması istiqamətində səylərini dəstəkləyirlər. Din xadimləri əmindirlər ki, belə təxribatçı cəhdlər möhkəm təməllər üzərində təşəkkül tapmış dövlətçiliyimizin əsaslarını heç bir vəchlə sarsıda bilməz.

Gəncədə törədilən ağır cinayətlərə bəzi mətbuat və sosial şəbəkələrdə hər hansı formada qiymət verilməsi cəhdlərinə baxmayaraq, bu ağır cinayətdir, məqsədli şəkildə təşkil olunmuş terrordur. Bu cinayətlərə istər şəxsi ədavət zəminində, istər başqa bir fonunda və ya istərsə də məmur-vətəndaş münasibətləri çərçivəsində yanaşma ilə ictimai fikri çaşdırmaq yolverilməzdir. Şəhər ictimaiyyətinin açıqladığı kimi E.Vəliyevin fəaliyyətini yerli camaat daim təqdir edib. Əhalinin həssas olduğu dəyərlər və insanların sosial şəraiti həmişə icra başçısının diqqətində olub. O, sadə insanların, ümumiyyətlə, vətəndaşların hüquqlarının qorunmasında daim həssaslıq nümayiş etdirib. E.Vəliyev cənab Prezidentin dediyi kimi, əhalinin xidmətçisi olub. Hadisələrin təhlilinə görə, onu da deyə bilərik ki, bu il Azərbaycan Xalq Cümhuriyyətinin və Silahlı Qüvvələrinin yaradılmasının 100 illiyinin qeyd olunması, iyunun 26-sı hərbi paradın keçirilməsi və ən müasir silahların həmin paradda nümayiş etdirilməsi, ekspertlərin də qeyd etdiyi kimi dövlətimizin hərbi qüdrətinin nümayişi çox yəqin ki, Azərbaycanı istəməyən qüvvələr tərəfindən narahatlıqla qarşılanıb. Bu antiazərbaycan qüvvələr ölkəmizdə iğtişaş yaratmaq, sabitliyi pozmaq üçün Gəncəni seçiblər. Mingəçevirdə baş vermiş qəza ilə əlaqədar ölkəmizdə yaranmış narahatlıq da bu məqsədi həyata keçirmək üçün əlverişli məqam hesab edilib. Dini radikalizmlə, ekstremizmin timsalında dünyanın ayrı-ayrı ölkələrində baş verən fəlakətlər, insanların vətənindən qaçqın düşməsi, günahsız körpələrin, qadınların və qocaların qətlə yetirilməsini inkar etmək mümkün deyil. Odur ki, dövlətimizin, xalqımızın mənafeyini Azərbaycana qarşı olan məkrli dairələrin maraqlarına qurban vermək olmaz. Siyasi baxışı və ədiqəsindən, dinindən və etiqadından asılı olmayaraq bu gün Azərbaycan xalqının bir yerdə olduğunu, birləşdiyini görürük. Dövlətimizə dəstəyin olması bütün vətəndaşlarımızın bu məsələdə qətiyyətli mövqeyini nümayiş etdirir. Mətbuata verilən müsahibələrdə qeyd edilir ki, görünür, Azərbaycanda proseslərin sivil, demokratik müstəvidə deyil, zorakılıq müstəvisində keçməsində maraqlı olan qüvvələr var. Proseslərin zorakı müstəviyə keçməsi Azərbaycan xalqının və dövlətinin ziyanınadır, olayların arxasında dini amili qabartmaqla diqqəti özündən yayındırmağa çalışan daha ciddi qüvvələr var. Azərbaycanda qarşıdurma yaratmaq, qanunları ayaq altına atmağa çalışanlara isə qanun dili ilə ən sərt şəkildə davranılmalıdır. Bu açıqlamalarda bildirilir ki, Azərbaycan dövlətçiliyini qorumaq hər birimizin şərəfli borcudur. İctimai fikir və rəylərdə hər kəsi hadisələri düzgün qiymətləndirərək obyektiv mövqe bildirməyə və dövlətimizin yanında olmağa çağırışlar var.

Yaranmış vəziyyətdə Azərbaycan cəmiyyətinin və vətəndaşlarının milli dövlətçiliyimiz ətrafında sıx birləşməsi təsdiq edir ki, hər kəs öz üzərinə düşən məsuliyyəti çox yaxşı dərk edir. Azərbaycandakı sabitlik və əmin-amanlıq hər kəsin təhlükəsizliyi üçün əsas amildir. Dünyada baş verənlər, qarşıdurmalar faciələr, tökülən göz yaşları hər birimizi sayıq olmağa çağırır. Azərbaycan xalqı ara qarışdırmaq, sabitliyi pozmaq istəyənlərə layiqli cavab verməyə qadir olduğunu öz birliyi və həmrəyliyi ilə göstərir. Ölkədə sabitlik və əmin-amanlığın dayaqları bu birlik və həmrəylik üzərində qərar tutub.

Azərbaycanda qarşıdurma, xaos yaratmaq istəyənlər qanunun sərt üzünü görəcəklər və ən ciddi şəkildə cəzalandırılacaqlar.

Gəncədə baş verən hadisələr göstərdi ki, Azərbaycana qarşı müxtəlif xarici mərkəzlərdən idarə olunan qüvvələr ölkəmizin uğurlarını, inkişafını heç cür qəbul edə bilmirlər və məkrli niyyətlərini həyata keçirməyə çalışırlar. Ancaq bu qüvvələr bilməlidirlər ki, Azərbaycan güclü dövlətdir və hüquq mühafizə orqanlarımız hər cür təxribatların, "terror" hadisələrinin qarşısını almağa qadirdir. İctimai-siyasi sabitliyi pozmağa yönəlmiş bu kimi təxribatçı cəhdlər möhkəm təməllər üzərində təşəkkül tapmış dünyəvi və hüquqi dövlətçiliyimizin əsaslarını sarsıda bilməz. Yəni, bu cəhdlər əbəsdir, bizim siyasətimizə şər qüvvələr heç cür təsir edə bilmir, —deyən dövlət başçısı cənab İlham Əliyev bildirib ki, Azərbaycan dövləti bu dəfə də öz gücünü göstərib və göstərəcəkdir: "Bütün cinayətkarlar məsuliyyətə cəlb olunacaqlar, məhkəmə qarşısında, ədalət qarşısında, xalq qarşısında cavab verəcəklər. Bunu təmin etmək üçün bizim kifayət qədər gücümüz, imkanlarımız var. Cinayətlərdən sonra aparılan əməliyyat-axtarış tədbirləri onu göstərir ki, cinayətkarların bir hissəsi artıq saxlanılıbdır. Operativ əməliyyat-axtarış tədbirləri davam etdiriləcək. Tam əminliklə deyə bilərəm ki, heç kim məsuliyyətdən boyun qaçıra bilməyəcək. Azərbaycan xalqı isə tam əmin ola bilər ki, Azərbaycan bundan sonra da inkişaf, tərəqqi yolu ilə gedəcək".

**Şükür ƏLİZADƏ,**
**"Respublika".**

# Vətəndaşlar davamlı tərəqqini, ölkədə aparılan mühüm ictimai-siyasi islahatları dəstəkləyir

**Azərbaycanın ən yeni tarixindəki genişmiqyaslı uğurlarını gözü götürməyənlər, uzun illərin sabitliyinə həqarətlə baxan daxili və xarici qüvvələr ölkədə "zəif" nöqtə "kəşf" edib, iğtişaşlar törətməyə və sabitliyi pozmağa cəhd göstərdilər. 1990-1995-ci illərdə də arası səngiməyən belə cəhdlər xalqımızın dahi siyasətçisi ulu öndər Heydər Əliyevin əyilməz iradəsi sayəsində zərərsizləşdirildi. 1995-ci ildən sonra "bəlkə də qaytardılar" xülyası ilə daxildə və xaricdə yaşayanlar tam əmin oldular ki, bir dəfə qalxan bayrağı yenidən endirmək qeyri-mümkündür.**

O illərdə ulu öndər demişdi: "Kim müxalifətdə durursa-dursun, ancaq vətəninə, xalqına, mənəviyyatına məsləkinə müxalifətdə durmasın". Təəssüf ki, vətənə, xalqa, öz mənəviyyatına, məsləkinə xəyanət edən nadanlar həmişə olub, bu gün də var. Gəncədə demokratiyanın inkişafına və sabitliyə açılan güllə elə nadanların iç üzünü açdı.

İyunun 26-da qüdrətini bütün dünyaya nümayiş etdirən hərbi parad Azərbaycanın günü-gündən artan nüfuzu, xarici ölkələrdə "yaşayan" düşmən qüvvələri daim rahat buraxmamış, nəyin bahasına olursa-olsun əhalinin sabit həyatını pozmağa, nəyisə bəhanə gətirib qarşıdurma yaratmağa çalışmışlar. Onlar nəticədə Gəncə şəhər İcra Hakimiyyətinin başçısına sui-qəsd edilməsinə nail oldular. Aradan bir həftə ötəndən sonra isə bir qrup nəsli-nəcabəti bilinməyən qüvvələr şəhərdə hərc-mərclik törətməyə cəhd göstərdilər. Bu hüquqa zidd hərəkətlərin qarşısının alınması zamanı iki polis zabitini kəsici və deşici alətlərlə qətlə yetirdilər.

Ümummilli liderimiz Heydər Əliyevin rəhbərliyi ilə qurulan demokratik dövləti qoruyub inkişaf etdirməyə nail olan xalqımız həmişə öz böyük oğluna arxalanıb. Azərbaycanda iqtidarla xalqın birliyi sarsılmazdır. Möhtərəm Prezidentimiz İlham Əliyev hüquq-mühafizə orqanları rəhbərlərininin iştirakı ilə keçirilən iclasdakı çıxışında bunu xüsusi olaraq qeyd edib.

Gəncə hadisələri zamanı xalqımız parlaq şəkildə göstərdi ki, böyük çətinliklərlə, mübarizələrlə qurulmuş, inkişaf etdirilmiş öz dövlətinin, onun layiqli prezidentinin yanındadırlar. Yaxın Şərq ölkələrində uzun müddətdir baş verən qanlı hadisələri Azərbaycanda həyata keçirmək mümkün deyil və buna heç vaxt imkan verilməyəcək. Hüquq-mühafizə orqanlarının iştirakı ilə keçirilən iclasda möhtərəm Prezidentimiz İlham Əliyev bildirib ki, "Bu qanlı terror aktları cəmiyyətdə gərginlik yaratmaq və cəmiyyətimizi qorxutmaq məqsədilə törədilmişdir. Bu terror aktları dini şüarlar altında törədilmişdir. Bu özlüyündə İslam dininə qarşı ən böyük cinayətdir. Çünki, islam sülh, mərhəmət dinidir. Azərbaycan dövləti və Azərbaycan xalqı öz milli və dini dəyərlərini daim qoruyur. Azərbaycan İslam mədəniyyətini dünyada ən çox təbliğ edən ölkələrdən biridir".

Son illərdə dünya xəritəsinə nəzər salsaq elə bir ölkə tapılmaz ki, həm beynəlxalq, həm də daxili siyasətdə Azərbaycanımız qədər uğurlar əldə etmiş olsun. Ən önəmlisi odur ki, bu dövr ərzində iqtisadi islahatlarla siyasi islahatlar bir-birini tamamlayıb. Respublikanın ən ucqar bölgələri belə uğurla, inamla inkişaf edir. Təbii ki, vətəndaşlar bu davamlı tərəqqini, sosial-iqtisadi reallıqları, ölkədə aparılan mühüm ictimai-siyasi islahatları dəstəkləyir. Buna görə də iğtişaş törədənlər və törətmək istəyənlər birdəfəlik başa düşməlidirlər ki, bu gün Azərbaycanda ekstremizmi xalq qəbul etmir. Bu xalqımıza yabancı bir məhfumdur. Prezidentimiz çıxışında bu məsələyə də münasibətini bildirib: "Bu cinayətkarlar müsəlman deyillər. Cinayətkarlar və onların arxasında dayananlar heç vaxt öz məkrli arzularına çata bilməyəcəklər. Azərbaycan dövləti və Azərbaycan xalqı buna heç vaxt imkan verməyəcək. Bütün Azərbaycan xalqı bu qanlı cinayətləri birmənalı olaraq pislədi və cinayətləri törədənlərə qarşı öz nifrətini ifadə etdi".

Bu gün Azərbaycan 90-cı illərin Azərbaycanı deyil. O, güclü dövlətdir və bütün hallarda öz müstəqilliyini, dövlətçiliyini qoruyub saxlamaq əzmindədir, çünki, ölkəmizdə sarsılmaz xalq-iqtidar birliyi mövcuddur. Xalqımız ölkə Prezidenti İlham Əliyevin həyata keçirdiyi uğurlu siyasəti qətiyyətlə dəstəkləyir və onun ətrafında sıx birləşir.

Onu da qeyd edim ki, GEES-logistik Karqo MMC şirkətimiz respublikadan kənarda olan vətəndaşlara məxsus malların Azərbaycana göndərilməsinə xidmət göstərir. Bu insanlarla təmasda olduğum zaman onlar bildirdilər ki, biz Gəncə hadisələrini və terrorizmi qətiyyətlə pisləyirik və respublika Prezidenti cənab İlham Əliyevin xalq üçün gördüyü işləri dəstəkləyirik.

**Sabir MİRZƏYEV,**
**GEES-Logistik Karqo MMC-nin təsisçisi YAP-ın üzvü.**

# Müstəqillik şəraitində sui-qəsd, terror cəhdləri xalqa, vətənə xəyanətdir

**Məlum olduğu kimi, 3 iyul və 10 iyul 2018-ci il tarixində Gəncədə baş verən son dərəcə ağır cinayət hadisələri Azərbaycan Respublikası Müharibə, Əmək və Silahlı Qüvvələri və Hüquq Mühafizə Orqanları veteranları tərəfindən lənətlənir və birmənalı pislənir.**

Hər şeydən əvvəl, veteranlarımız bu ağlasığlmaz cinayətləri törədənlərə, bilavasitə onların havadarlarına nifrət edirlər. Bu da bir həqiqətdir ki, baş vermiş həmin hadisələrdən sonra ictimaiyyətdə müxtəlif fikirlər formalaşır. Əsas fikirlər ondan ibarətdir ki, qabaqcadan planlaşdırılmış həmin təxribatlarla gündən-günə çiçəklənmiş və inkişafda olan dövlətimiz hədəf nöqtəsi seçilmişdir.

Veteranlarımız hadisələri təhlil edərək belə nəticəyə gəlirlər ki, bu hadisələr ayrı-ayrı rəhbər, vəzifəli şəxslərə qarşı yox, Azərbaycan dövlətçiliyinə yönəldilən terror aktıdır. Ölkədə xaos yaratmaq məqsədilə bu terroru həyata keçirənlər tam araşdırılmalı, təqsiri müəyyən olunan şəxslərin hamısı ifşa edilərək cinayət məsuliyyətinə cəlb olunmalıdırlar.

Biz əminik ki, Azərbaycan Respublikası Prokurorluğunun peşəkar müstəntiqləri cinayətkarları tezliklə ədalət məhkəməsi qarşısına çıxaracaqlar.

Azərbaycan dövlətinin milli maraqları hər birimiz və hər bir vətəndaş tərəfindən qətiyyətlə qorunmalıdır. Həmçinin Azərbaycan Respublikası Veteranlar Təşkilatı belə hesab edir ki, bu sui-qəsdlər, terrorlar vətənimizə, xalqımıza, əmin-amanlığımıza, birliyimizə və eyni zamanda dövlət rəhbərlərinə qarşı xəyanətdir.

Yeri gəlmişkən qeyd etmək lazımdır ki, hüquq-mühafizə orqanlarının əmək veteranlarından bir qrupu Gəncə Şəhər İcra Hakimiyyətinin başçısı Elmar Vəliyevin təşkilatçılıq qabiliyyəti, işgüzarlığı və vətənpərvərliyi haqqında ağız dolusu xoş söhbətlər danışırlar. Onlar söyləyirlər ki, 1975-1983-cü illərdə Yevlax rayonunda və sonrakı illərdə Gəncə şəhərində xidməti vəzifələrdə olarkən Elmar Vəliyevi gənc yaşlarından tanıyırlar. Siyasi-kütləvi işləri icra edərkən onun fəallığını keçmiş komsomol və partiya aparatlarında görmüşlər.

Respublikanın ictimai-siyasi həyatında tanınan veteranlarımız da təsdiq edirlər ki, Elmar Vəliyev torpağına, xalqına bağlı insandır. Dövlətimizə və Prezidentimizə sadiqdir. Yevlaxda və Gəncədə rəhbər vəzifələrdə çalışdığı dövrlərdə son dərəcə nəhəng işlər həyata keçirmiş, Yevlax və Gəncə şəhərlərini Azərbaycanın gülzar guşələrinə çevirmişdir. Ona edilən sui-qəsd yalnız paxıllıqdan, xainlikdən, göz götürməməzlikdən ortaya çıxmışdır. Ona ləkə yaxanlar yanılırlar.

Ümumiyyətlə, Veteranlar Təşkilatının ağsaqqal, müdrik insanları belə hesab edirlər ki, Gəncənin inkişafını, tərəqqisini gözü götürməyən düşmən qüvvələr tərəfindən iyulun 3-də Elmar Vəliyevə qarşı sui-qəsd təşkil etmişlər. İyulun 10-da isə bir qrup qüvvə şəhərin mərkəzində iğtişaş törətmişlər. Bu qara qüvvələrin hücumlarının qarşısı alınarkən xidməti vəzifələrini yerinə yetirən iki polis zabiti Gəncə şəhər Baş Polis İdarəsinin rəis müavini, polis polkovniki İlqar Balakişiyev və Gəncənin Nizami Rayon Polis İdarəsinin rəis müavini, polis polkovnik-leytenantı Səməd Abbasov radikal ünsürlərin kəsici-deşici alətlərlə yetirdikləri zərbələr nəticəsində şəhid olmuşlar.

Bu terroru təşkil edən qüvvələr unudurlar ki, ulu öndər Heydər Əliyevin yaratdığı Azərbaycan dövlətini daşla-kəsəklə dağıtmaq mümkün deyildir. Azərbaycan dövləti 1990-cı ilin əvvəllərində olduğu kimi deyil, Azərbaycan indi iqtisadi, hərbi, siyasi cəhətdən inkişaf etmiş güclü dövlətdir. Dövlət başçısı cənab İlham Əliyevin qətiyyətlə bəyan etdiyi kimi, şübhə yoxdur ki, radikal ekstremistlər hamısı layiqli cəzalarını alacaqlar. Heç kəs məsuliyyətdən yaxa qurtara bilməyəcək.

**Cahangir NƏSİROV,**
**Azərbaycan Respublikası Veteranlar Təşkilatının Nəzarət Təftiş Komissiyasının sədri, baş ədliyyə müşaviri.**

# BƏYANAT

Biz, Yaradıcı Qadınlar Birliyinin üzvləri 10 iyul Gəncə hadisələrinə qarşı öz etirazımızı bildirir, dövlət nümayəndələrinə qarşı sui-qəsd və qətl törədənləri lənətləyir və onlara ən ağır cəza verilməsini aidiyyəti orqanlardan qətiyyətlə tələb edirik!

Mərd Cavad xanların yurdu qədim Gəncənin müqəddəs torpaqlarına nahaq qan tökənlər, sakit və sabit asayişimizi pozmaq istəyənlər, gündən-günə qüdrətlənən dövlətimizə öz qanlı əllərini uzadaraq bəşərin ən humanist dini olan İslam pərdəsi altında öz mənfur niyyətlərini həyata keçirməyə cəhd edənlər, günahsız, silahsız insanlara namərdcəsinə hücum edib qətlə yetirənlər ulu Tanrı və müqəddəs qanunlarımız qarşısında cavab verməlidirlər!

Biz, yaradıcı qadınlar, eləcə də sağlam düşüncəli bütün gəncəlilər bu hadisələri qətiyyətlə pisləyir, dövlətimiz, möhtərəm prezidentimizlə birgə olduğumuzu, Dövlətçiliyimiz uğrunda mübarizəyə canımızla, qanımızla, övladlarımızla hər an hazır olduğumuzu bir daha bəyan edirik. Heç bir qüvvə iqtidarla xalq birliyini poza bilməz!

**Əsmət Məhsəti GƏNCƏLİ,**
**filologiya elmləri doktoru, professor, Yaradıcı Qadınlar Birliyinin sədri.**
**12 iyul 2018-ci il.**

# 2018-ci ilin yanvar-iyun ayları ərzində görülmüş işlərə dair geniş müşavirə

**Əmlak Məsələləri Dövlət Komitəsi tərəfindən 2018-ci ilin yanvar-mart ayları ərzində görülmüş işlər və və qarşıda duran vəzifələrə dair geniş müşavirə keçirilib. Müşavirədə çıxış edən Komitə sədri Kərəm Həsənov qeyd edib ki, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev tərəfindən sosial-iqtisadi sahələrdə aparılan islahatlar dövlət idarəetməsinin modernizasiyasına, beynəlxalq təcrübənin öyrənilməsinə və yeniliklərin tətbiqinin genişləndirilməsinə yönəlib.**

İnkişaf strategiyası çərçivəsində makroiqtisadi sabitliyin təmin edilməsi, şəffaflığın artırılması, korrupsiyanın aradan qaldırılması, dövlət xərclərinə nəzarətin gücləndirilməsi qarşıya qoyulan tapşırıqların məğzini təşkil edir. İqtisadiyyatın digər sahələri ilə yanaşı, əmlak idarəçiliyi sahəsində də müasir yanaşmaların tətbiqi, insan amilinə istiqamətlənmiş innovativ layihələrin reallaşdırılması, göstərilən xidmətlərin elektronlaşması ilə bağlı yeni hədəflər müəyyənləşdirilib. Bu istiqamətlərə əsaslanan proqram xarakterli işlər görülmüşdür. Əmlak Məsələləri Dövlət Komitəsi tərəfindən daşınmaz əmlak idarəçiliyi sahəsində müəyyən olunmuş hədəflər torpaqların elektron uçotunun yaradılması və sistemli idarə edilməsi, ölkədə mükəmməl elektron kadastr uçotunun reallaşdırılması və torpaqlardan səmərəli istifadə edilməsində Peyk nəzarət sistemi qurulması prinsiplərini əhatə edir.

Vətəndaşların daha sadə formada istifadə etmələri üçün göstərilən elektron xidmətlərin sayı 38-ə çatmışdır. Elektron çıxarış, Elektron hərrac, "Əks zəng", "Əmlakın qeydiyyatı kalkulyatoru" kimi tətbiq olunan funksional yeniliklər əmlakın müasir texniki imkanlar əsasında idarə olunmasını mümkün edir. Eləcə də daşınmaz əmlak üzərində hüquqların dövlət qeydiyyatı ilə bağlı ərizələrin icra müddəti sürətləndirilməklə bir, üç və yeddi iş günü müddətinə endirilib. Özəlləşmə prosesində yeni mərhələ olan "Elektron hərrac" sistemi dövlət əmlaklarının elektron mühitdə, şəffaf formada özəlləşdirilməsi imkanlarını genişləndirir. İstifadəyə verilməsindən qısa müddət keçməsinə baxmayaraq, artıq 30-a yaxın şəxs hərraclara onlayn qaydada qoşularaq, özəlləşmədə iştirak edib. Cari ilin ilk altı ayında dövlət əmlakının özəlləşdirilməsi ilə bağlı ümumilikdə 100-dən artıq hərrac keçirilmişdir. Bu dövrdə 500-ə yaxın dövlət əmlakı, o cümlədən torpaq sahələri və nəqliyyat vasitələri özəlləşdirilmişdir.

Dünya Bankının tövsiyələri də nəzərə alınmaqla iri dövlət şirkətlərinə dair vahid məlumat bazası formalaşdırılmışdır. Bu məlumat bazasında kadr uçotu üzrə məlumatlar, maliyyə və mühasibat göstəriciləri, o cümlədən daşınmaz əmlaka dair informasiyalar yer alır.

Ümumilikdə 19 rayonda torpaqların elektron kadastr uçotuna alınması işləri yekunlaşmışdır. 8 rayonda elektron kadastr uçot işləri üzrə görülən işlərin nəticələri ilə bağlı ictimai təqdimatlar keçirilib və bu məlumatlar elektron şəkildə yerli icra hakimiyyətinin, aidiyyəti qurumların xidməti istifadəsinə təqdim edilib.

Torpaqların idarə edilməsində xüsusi əhəmiyyətə malik olan, onların təyinatından kənar və ya qeyri-səmərəli istifadə hallarını aşkar etməyə imkan verəcək Peyk Nəzarət Sistemindən istifadə olunmasına başlanılır.

Bu ilin ilk iki rübü ərzində torpaqlardan təyinatına uyğun və səmərəli istifadə, torpaq bazarının təşkili, əsassız zəbt olunması və bir sıra istiqamətlərdə nəzarət tədbirləri davam etdirilmişdir. İnzibati Xətalar Məcəlləsinin tələblərinə əsasən 340 hal üzrə inzibati protokol tərtib olunub.

2018-ci ilin birinci yarısında ölkə üzrə 100 mindən çox daşınmaz əmlak obyekti üzərində mülkiyyət hüquqları qeydiyyata alınmışdır. Cari ilin ilk 6 ayında sosial layihə olan "Kütləvi çıxarış" kampaniyası vasitəsilə 15-ə yaxın rayonda vətəndaşlara ünvanındaca qeydiyyat xidmətləri göstərilib.

Komitə elektron hərracların təşkili, dövlət əmlakının idarəedilməsi, kadastr ilə bağlı xarici ölkələrlə yeni əməkdaşlığa imza atır.

Müşavirənin sonunda Komitə sədri Kərəm Həsənov -torpaqların mühafizəsinə dövlət nəzarətinin daha da gücləndirilməsi, qanunsuz tiklilərin qarşısının alınması, torpaq münasibətlərinin tənzimlənməsinin effektiv aparılması, o cümlədən, torpaqların elektron kadastr uçotu sisteminin təkmilləşdirilməsi, kəmiyyət və keyfiyyət göstəricilərinin müəyyən edilməsi ilə bağlı görülən işlərin sürətlənməsi barədə tapşırıqlarını verib.

**Nəriman CAVADOV,**
**"Respublika".**

# UNEC türk dilində tədrisdə yeni model tətbiq edəcək

**Azərbaycanda Türkiyə türkcəsində ali təhsil verən yeganə universitet olan UNEC türk dilində tədrisdə yeni standartlar tətbiq edəcək.**

Bu məqsədlə UNEC ilə Türk Dünyası Araşdırmaları Vəqfi (TDAV) arasında əməkdaşlıq müqaviləsi imzalanıb. UNEC-in rektoru, professor Ədalət Muradov və Türk Dünyası Araşdırmaları Vəqfinin sədri Közhan Yazganın imzaladığı sənəddə türk dilində tədrisin təkmilləşdirilməsi və türkdilli iqtisadçı kadr hazırlığının keyfiyyətinin daha da yüksəldilməsi nəzərdə tutulub.

Müqaviləyə əsasən, yeni tədris ilindən UNEC-də türk dilində tədris proqramları universitetin digər fakültələrində olduğu kimi, Avropa Kredit Transfer Sisteminə uyğun aparılacaq. Bu, tələbələrin mobilliyini təmin etməklə yanaşı, təhsil proqramlarının dövlətlərarası müqayisəsi və tanınması prosedurlarını asanlaşdıracaq. Türk Dünyası İşlətmə fakültəsi isə "Türk Dünyası İqtisad Fakültəsi" adlandırılacaq. Türk Dünyası Araşdırmaları Vəqfinin sədri Közhan Yazgan fakültənin fəxri dekanı hesab ediləcək.



UNEC-də tələbələrin türk dilində fənləri daha yaxşı mənimsəməsi üçün Yunus Emrə İnstitutu tərəfindən Türkiyə türkcəsində hazırlıq dərsləri təşkil olunacaq. Tədrisə türk dilini mükəmməl bilən, fənnə uyğun ixtisas və təcrübəyə sahib olan müəllimlər cəlb olunacaq.

UNEC-ə türk dilində "maliyyə", "iqtisadiyyat" və "biznesin idarə edilməsi" ixtisasları üzrə tələbə qəbulu Azərbaycan Respublikasının qanunvericiliyinə uyğun həyata keçiriləcək. Türkiyə vətəndaşları üçün UNEC-də ali təhsilin əlçatan olması məqsədilə onların təhsil haqları azərbaycanlı tələbələrlə eyni olacaq.

Məzunlara UNEC-in diplomu ilə yanaşı, Türk Dünyası Araşdırmaları Vəqfinin məzun sənədi də veriləcək.

**Amalya ƏBDÜLƏLİQIZI,**
**"Respublika".**

# MASALLIDA MİLLİ MƏTBUAT GÜNÜ



Masallıda rayonda və bölgədə fəaliyyət göstərən kütləvi informasiya vasitələri nümayəndələri ilə görüş keçirilib.

Tədbir iştirakçılarının əvvəl şəhərin Heydər Əliyev Mərkəzinə, Uşaq-İncəsənət Məktəbinə, Tarix-Diyarşünaslıq Muzeyinə və Viləşçay park-bulvar komleksinə infoturu təşkil olunub.

"Masallı hotel"də keçirilən bayram tədbirini Masallı Rayon İcra Hakimiyyəti başçısının müavini Nəsir Muxtarlı açaraq jurnalistləri Milli Mətbuat Günü münasibətilə təbrik edib. Mətbuatın keçdiyi şanlı, şərəfli tarixi yoldan söhbət açaraq milli mətbuatımızın özünəməxsus ənənələrindən, ölkəmizdə dövlətçiliyimizə sadiq, sədaqətli jurnalistlər nəslinin yetişməsindən danışıb. Qeyd edib ki, Azərbaycanda demokratik mətbuatın, azad sözün, fikir plüralizminin formalaşması ümummilli lider Heydər Əliyevin adı ilə bağlıdır. Ulu öndər demokratik dövlət quruculuğu prosesində kütləvi informasiya vasitələrinin rolunu daim yüksək qiymətləndirmiş, Azərbaycanda senzuranın ləğvi və bir sıra digər tədbirlərlə mətbuatın inkişafına böyük dəstək vermişdir. Mətbuatımızın inkişafına, jurnalistlərin sosial müdafiəsinin gücləndirilməsinə yönəlmiş siyasət bu gün möhtərəm Prezidentimiz İlham Əliyev tərəfindən ardıcıl və davamlı şəkildə davam etdirilir.

Sonra Nəsir Muxtarlı son illər Masallının sürətlə inkişaf etdiyini, möhtərəm Prezidentimizin xeyir-duası ilə "Asan həyat" kompleksi, Tarix-Diyarşünaslıq Muzeyi, Uşaq-İncənət Məktəbi, Bayraq Meydanı, Dövlət Rəmzləri Muzeyinin, içməli su sisteminin tikilib istifadəyə verildiyini, rayonda mətbuat işçilərinə, onları narahat edən problemlərin həllinə daim qayğı göstərildiyini bildirib.

Yeni Azərbaycan Partiyası Masallı rayon təşkilatının sədri Seyfəddin Əliyev mətbuat nümayəndələrini Milli Mətbuat Günü münasibəti ilə təbrik edərək hamıya xoş arzularını və bayram təbriklərini söyləyib.

Mətbuat işçilərindən Pərvanə Əliyeva, İsmayıl Cəfərli, Zahir Əmənov, Elşən Əliyev, Rəhman Məlikov, Asəf Ayazoğu, Rövşən Əzimov və başqaları çıxış edərək milli mətbuatımızın inkişafına və jurnalistlərə göstərilən dövlət qayğısına görə ölkə Prezidenti cənab İlham Əliyevə dərin minnətdarlıqlarını bildiriblər.

**Əlisəfa HƏSƏNOV,**
**"Respublika".**

# Unudulmaz alim Hüseynağa Muradxanov



**Ulu Tanrı hər kəsə bir ömür payı verib, onu necə başa vurmaq insanın özündən asılıdır. Vətən, xalq üçün ürəyini məşələ çevirənlər həmişə yadda qalır.**

Mən gənclik illərində gördüyüm, tanıdığım belə fədakar insanları yaddan çıxarmıram, onları hörmətlə xatırlayıram. Politexnik İnstitutunda dərs demiş - Həbib Məmmədov, İsrafil Qarayev, Ağasəməd Əlizadə, Səid Sultanov, Fyodr Yaroşevski, Həbib Abbasov kimi professorlar həmişə öz əməlləri ilə yaşayan insanlardı. Mənim onlardan biri - Hüseynağa Muradxanov haqqında yazıma bəlkə də "gecikən yazı" demək olar. Nədən ki, 2018-ci ilin yanvarında rəhmətliyin 110 illiyi tamam oldu. Amma başqa həqiqət də var. Adətən dəyərli alimlərin, görkəmli şəxsiyyətlərin yubileyləri bəzən ilboyu keçirilir. Hər halda mənə təskinlik verən də məhz budur.

Bütün zamanlarda Azərbaycanın dünya şöhrətli alimləri olub və bu gün də var. Əminliklə deyə bilərəm ki, Hüseynağa müəllim də xalqımızın gözəl ziyalısı, çox qiymətli elm adamlarından biri kimi özünü tanıtmışdı. Çünki o, necə deyərlər, "saf bulaqdan su içmişdi". Kökü, nəsli-nəcabəti vardı: türk dünyasının böyük mütəfəkkiri, milli ideologiyamızın banisi, Azərbaycan mətbuatı tarixində "Füyuzat" jurnalistika məktəbinin əsasını qoyan Əli bəy Hüseynzadənin yaxın qohumlarından idi. Təəssüf ki, sovet dönəminin "yazılmayan qanunları" uzun illər ərzində bu tarixlərin üstündən qalın pərdə çəkmişdi

Əslində həqiqi alim üçün dövrün, quruluşun elə də əhəmiyyəti olmur. Beləlları bütün zamanlarda xalqına xidmət ediblər, elm yolunda gözlərinin nurunu veriblər. Hüseynağa müəllim də yaddaşlarda məhz belə alim kimi qalıb.

Demək istədiklərimdən bir qədər ayrı düşsəm də, görkəmli alimin, nəcib və gözəl bir insanın keçdiyi mənalı, gənclərə əsl örnək olan ömür yoluna qısaca da olsa, nəzər salaq.

Hüseynağa Səmədağa oğlu Muradxanov 1908-ci ildə Bakı quberniyasının Salyan şəhərində anadan olmuşdur.

O, 1926-cı ildə Azərbaycan Politexnik İnstitutunun inşaat mühəndisliyi fakültəsinə daxil olmuş və oranı 1931-ci ildə uğurla bitirmişdir. Həmin il Politexnik İnstitutunun aspiranturasına qəbul olunmuş və assistent vəzifəsində çalışmışdır. 1935-1941-ci illərdə pedaqoji işdən ayrılmadan Azərbaycan Dövlət Layihə İnstitutunda baş konstruktor işləmişdir. Beləliklə, o, pedaqoji və mühəndislik işlərini birlikdə yerinə yetirmişdir.

Böyük Vətən Müharibəsi dövründə orduya çağırılmış və müharibənin sonuna qədər cəbhədə olmuş Hüseynağa müəllim tərxis olunduqdan sonra Azərbaycan Sənaye İnstitutunda materiallar müqaviməti və inşaat mexanikası kafedrasında çalışıb. 1949-cu ildə dissertasiya müdafiə edərək texnika elmləri namizədi alimlik dərəcəsi alıb.

1950-ci ildə Azərbaycan Sənaye İnstitutundan Azərbaycan Politexnik İnstitutu ayrılarkən o, həmin instituta keçirilmiş, burada əvvəlcə materiallar müqaviməti və inşaat mexanikası kafedrasına müdir təyin olunmuş, sonra inşaat mexanikası kafedrasını yaradaraq, 1975-ci ilə qədər həmin kafedraya rəhbərlik etmişdir.

1954-cü ildə H.Muradxanov Politexnik İnstitutunun tədris işləri üzrə prorektoru vəzifəsinə irəli çəkilmişdir. 1964-cü ilə qədər bu yüksək vəzifədə çalışan H.Muradxanov özünü tədrisin gözəl bilicisi və təşkilatçısı kimi tanıtmışdır. 1966-cı ildə ona SSRİ-AAK professor elmi dərəcəsi verilmişdir.

1975-ci ildə yeni yaradılmış Azərbaycan Memarlıq və İnşaat Universitetinə keçən professor H.Muradxanov ömrünün axırına qədər (17 iyul 1996-cı il) orada çalışmışdır.

Professor işlədiyi müddətdə inşaat mexanikası və inşaat konstruksiyası sahəsində çoxlu elmi məqalə nəşr etdirmiş və inşaat mexanikası üzrə dərsliklər yazmışdır. Onun Azərbaycan dilində yazdığı "İnşaat mexanikası" dərsliyi uzun illərdir ki, tələbə və müəllimlərin stolüstü kitabıdır.

Alimin yüksək ixtisaslı mühəndis kadrların hazırlanmasında xidmətləri böyükdür. O, xalqımızın övladlarının üç nəslinin müəllimi olmuşdur.

H.Muradxanovun xidmətləri yüksək qiymətləndirilmiş, "Almaniya üzərində qələbə" medalı, "Şərəf nişanı" ordeni və bir neçə dəfə Azərbaycan SSR Ali Soveti Rəyasət Heyətinin Fəxri fərmanları ilə təltif olunmuşdur.

Professor yüksək erudisiyalı mühəndis, böyük pedaqoq-alim olmaqla yanaşı, yüksək mədəniyyətli, həssas, qayğıkeş, xeyirxah müəllim kimi də tanınırdı. O, ensiklopedik biliyə, güclü yumor hissinə malik nikbin bir şəxs idi. Elm, ədəbiyyat və poeziya vurğunu idi. H.Muradxanov "Texnika aləmində", "Birliyin gücü" və s. kitabların müəllifidir.

Hüseynağa müəllim haqqında saatlarla danışmaq olar. Onun parlaq xatirəsi qəlbimdə o qədər dərin iz buraxıb ki, hərdən düşüncələrimdən ayrıla bilmirəm. Sağlığında dediyi sözləri, fikirləri indi də götür-qoy edirəm, bir daha o gözəl insanın nurlu siması gözlərim önünə gəlir.

Yeri gəlmişkən, Turan adlı qızı vardı. Hüseynağa müəllim bir ata kimi onu çox istəyirdi və qızına xüsusi qayğı göstərirdi. O da atası kimi haqq dünyasına qovuşdu və Azərbaycanda bir alim kimi özünü kifayət qədər tanıtdı. Turan Muradxanova atası haqqında yazdığı məqalələrdən birində qeyd edirdi ki, hər dəfə əlyazmalarını nəzərdən keçirəndə, dərin təəssüf hissi ilə özümü qınayıram: onun tarixi dramları, poemaları, gözəl hekayələri, şeirləri, yumor və miniatürləri çap edilməmiş qaldı. "Atamın ədəbiyyatda da özünəməxsus üslubu vardı. O, həmişə yazdıqlarını çap etdirmək arzusu ilə yaşayırdı. Biz isə sadəlövhcəsinə buna məhəl qoymur, başa düşmürdük ki, onu bu sevincdən məhrum etməklə böyük səhvə yol veririk ". Yeri gəlmişkən, Turan xanım Muradxanovanın özü də elmdə böyük nailiyyətlər qazanmışdı. Söz düşmüşkən, bu xanım barədə də yığcam şəkildə məlumat vermək istərdim.

Turan Muradxanova 1960-cı ildə Azərbaycan Politexnik İnstitutunun inşaat fakültəsinin memarlıq ixtisasını bitirmişdir. 1966-cı ildə Varşavada Politexnik İnstitutun Elmi Şurasında dissertasiya müdafiə edərək texnika elmləri doktoru, alimlik dərəcəsi almışdır. 1962-1966-cı illər ərzində Azərbaycan Politexnik İnstitutunun memarlıq-layihələndirmə kafedrasının aspirantı, daha sonra assistenti, baş müəllimi, dosenti kimi çalışmış, 1975-ci ildən isə fəaliyyətini Azərbaycan İnşaat Mühəndisləri İnstitutunda davam etdirmiş və nəhayət, 1996-cı ildə professor vəzifəsinə seçilmişdi.

O, işlədiyi müddətdə "Bizim mənzil" kitabı və bir sıra elmi məqalələri çapdan çıxmışdır. Bir sıra dərs vəsaitinin müəllifidir.

1986-cı ildə arxitektura və şəhərsalma sahəsində xidmətlərinə görə T.Muradxanovaya Azərbaycan Respublikasının "Əməkdar ali məktəb işçisi" fəxri adı verilmişdir.

1994-cü ildə isə o, Beynəlxalq Şərq Ölkələri Memarlıq Akademiyasının müxbir üzvü seçilmişdi.

Bir qədər əvvəl qeyd etdiyim kimi, Hüseynağa müəllim haqqında xatirələrim çoxdur. Təəssüf ki, bütün bunlar bir məqaləyə sığmaz. Böyük alim ömrünün 60 ildən çoxunu ali məktəbə həsr etdi. Onun üçün təhsil xüsusi əhəmiyyət kəsb edirdi. O da yadıma gəlir ki, tələbələri də Hüseynağa müəllimi çox sevərdilər, mühazirələrinə böyük maraq göstərərdilər.

Hüseynağa müəllim həm də təqvalı bir insan idi. Sovet dövrü olmasına baxmayaraq, Quranı gözəl bilirdi. Ümumiyyətlə, insan əxlaqı onun üçün ən öndə duran bir məsələ idi. Ona görə də həmişə xeyirxahlığa can atar və maksimum ədalətli olmağa çalışardı.

Belə insanlar unudulmur. Hüseynağa müəllimə də, onun alim qızı Turan xanıma da dönə-dönə rəhmət diləyirəm.

**Rəhim ŞÜKÜROV,**
**Professor.**

# Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyi Aprel döyüşlərinə həsr olunan "Yüksəklik" oyununu yenidən maliyyələşdirir

**Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyi Aprel döyüşlərinə həsr olunan "Yüksəklik" virtual reallıq oyununu yenidən maliyyələşdirir.**

